Telman Orucov

Yunanıstan: səfər təəssüratları və zəngin keçmişi barədə düşüncələr

I FƏSİL

Səyahət xatirələri

1983-cü ilin avqustunda Moskvadan Afinaya işgüzar səfərə yollanmışdıq. Bu ölkə və onun ibrətamiz keçmişi ilə, mütaliəm hesabına bir qədər tanış idim. Hamıya yaxşı məlumdur ki, Yunanıstan qədim və böyük tarixə malik bir ölkədir, onun torpaqlarında Elladanın çox sayda gözəl abidələri qalmışdır. Qədim yunanların elmi, incəsənəti, mədəniyyəti, arxitekturası Avropa, əslində, əsasən bütün dünya mədəniyyətinin başlanğıcı olmuşdur. Bu böyük xidmətinə görə Yunanıstan haqlı olaraq «Avropa sivilizasiyasının beşiyi» adlanır.

Paytaxtda qarşılanmağımız

Təyyarə Afina Beynəlxalq Hava meydanında yerə enəndə pilot kabinəsinin yanındakı qapıya da pilləkən verdilər. Cavan bir oğlan salona daxil olub, birinci cərgədə oturduğumuza görə bizə müraciət etdi və mənim soyadımı səsləndirdi. Tanışlıq verdikdə bildirdi ki, sizi səfir qarşılayır. Nəzakət xatirinə əlimdəki diplomat keysini də aldı. SSRİ-nin Yunanıstandakı səfiri, təcrübəli diplomat olan V.F.Kabişkin pilləkənin yanında məni salamladı və baqajlar verilənə qədər aeroportun ikinci mərtəbəsində oranjad və kofe içməyə dəvət etdi. Azacıq istirahətdən sonra biz qanadında SSRİ dövlət bayrağı olan «Mercedes»ə əyləşib, şəhərin kənar hissəsində yerləşən səfirliyə getdik. İri kompleks fasadı ağ mərmərdən olan binalardan ibarət idi və bir az əvvəl tikilib istifadəyə verilmişdi. Mərasimdə SSRİ Nazirlər Sovetinin sədri N.A.Tixonov da iştirak etmişdi.

Səfirlik bizim eradan əvvəl 490-cı ildə Marafon döyüşündə yunanların, onları cəzalandırmaq üçün I Dara tərəfindən qaldırılan ikinci yürüşdə Persiya ordusu üzərində qələbə çalması xəbərini gətirən döyüşçünün yıxılıb öldüyü yerdə yerləşirdi. Səfir Vladimir Fyodoroviç bizi xanımı ilə tanış etdi, özü xidməti işi ilə əlaqədar üzr istəyib, kabinetinə yollandı. Biz isə dəhlizdə xanımının göstərişi ilə çərəzə və sərin içkilərə qonaq olduq. Səfir qayıtdıqda xüsusi otaqda təşkil edilən ziyafətə dəvət edildik. Ziyafətdə xanımı da iştirak edirdi və ofisiant yaxınlaşıb boşqablara xörək qoyurdu.

Birdən yadıma təyyarə salonunda yanımda oturmuş yeni tanışım – görkəmli riyaziyyatçı, V.A.Steklov adına Riyaziyyat İnstitutunun Leninqrad filialının direktoru, SSRİ Elmlər Akademiyasının həqiqi üzvü L.D.Fadeyev düşdü. Bu gənc

istedadlı alim olduqca sadə bir insan idi, qızmar yay olduğuna baxmayaraq qara yun kostyum geyinmişdi. Pencəyinin qolunda siqaretin yandırmasının izi kimi deşik də var idi. Lyudviq Dmitriyeviç aeroportda qalmışdı ki, Krit adasına uçuşunu gözləsin. Onu da nahara gətirməyi təklif edəndə, səfir lazımi tapşırıqlar verdi və bir qədər sonra minnətdarlığını izhar edən akademik də məclisimizə qatıldı.

Moskvadan tələsik uçduğuma görə səfər proqramı ilə tanış olmamışdım, ona görə də səfir gedəcəyimiz marşrutu elan etdi. Beləliklə, biz Fadeyevlə birlikdə axşamüstü Krit adasına, Xanya şəhərinə nəhəng "A-300" aerobusunda uçmalı olduq. Orada onunla xudahafizləşəndə, əlində kiçik bir keys olduğunu gördük və özümüzün suvenir ehtiyatından ona bir butulka konyak və bir butulka şampan şərabı verdim. O, Ortodoks (pravoslav) Akademiyasında mühazirə oxumağa gəlmişdi və bir neçə həftə adada olacaqdı. Hədiyyələrə görə razılığını və Leninqradda görüşümüzü arzu etdiyini bildirdi.

Paytaxtla qısa da olsa tanış olmadan biz ölkəyə səfərə çıxdıq.

Yunanıstanın təbii şəraiti

Yunanıstan qədim olduğu kimi, həm də təbiəti etibarilə maraqlı ölkədir. Aralıq dənizi ölkəsi olmaqla, Avropanın və Asiyanın çıxıntısında yerləşir. Belə coğrafi vəziyyəti onun bu diyarın mühüm ticarət-nəqliyyat əhəmiyyətinə malik olmasına şərait yaratmışdır. Ölkə Balkan yarımadasının cənub qurtaracağıdır, dənizlərdəki mindən çox adaya malikdir. Onlardan ən böyüyü isə bizim ilk səfər mənzilimiz olan Kritdir.

Yunanıstan sahillərini Egey, Krit, İon və Aralıq dənizlərinin suları yuyur. Çox saydakı körfəzlər əlverişli təbii liman rolunu oynayır. Qədim yunanlar finikiyalılardan və karfagenlərdən sonra ən fərasətli dənizçilər sayıla bilərdi.

Ölkənin təbii şəraiti, dağlıq, həm də dənizlərlə əhatə olunması, buradakı iqlim hələ qədim yunanların xarakterinə, iradəliliyinə, axtarışlara, kəşflərə meyil etmələrinə də mühüm təsir göstərmişdir. Dağlıq, meşəsiz qayalıq ərazi dənizdən gələn mülayim meh ilə havanı yumşaldır, bu qəribə sintez yunanlarda həyata vurğunluq, qəribə də olsa, özünü elmə, incəsənətə ehtiraslı şəkildə həsr etmək vərdişi, yüksək vətənpərvərlik hissləri aşılamışdır.

Dənizçilik onlar üçün torpaqda işləməyi də əvəz etdi. Hərbi sahədəki uğurları da xeyli dərədə döyüşkən donanmalara malik olmaları ilə əlaqədar idi. Bizim eradan əvvəl V əsrin başlanğıcında üç dəfə Persiyanın, Əhəməni imperiyasının təhlükəli müdaxiləsinə məruz qalan yunanlar nəticə etibarilə düşmənə tutarlı cavab vermiş və qəti qələbə çalmışdılar. Minillər keçdikdən sonra da yunanların ruhundakı mübarizə alovu sönməmiş, XIX əsrdə 400 ilə qədər davam edən Osmanlı əsarətindən xilas ola bilmişdi.

Yunanıstanın landşaftı qayalıq, adətən meşəsiz və az sayda əhalinin yaşadığı məkan olmaqla, həm də dənizlərdən ibarətdir. İlin çox hissəsində buludsuz göy və günəşin qızdırdığı hava, həm də subtropik iqlim, əhval-ruhiyyəyə yaxşı təsir

göstərir. Ölkənin ən böyük problemlərindən biri seysmik aktivlikdir, zəlzələlərin baş verməsidir, bu sahədə Avropada yalnız İtaliyadan geri qalır. Digər bir problem isə torpaqların eroziyaya uğramasıdır. Bu, bütün dağlıq ölkələrə xasdır.

Yunanıstanın dağları bizim Kiçik Qafqaz dağları kimi uca deyildir. Yalnız Olimp dağ silsiləsinin hündürlüyü 3 min metrə çatır. Dağlar iqlimə də böyük təsir göstərir.

Aralıq dənizi sularının verdiyi nəhəng isti ehtiyatları hesabına qışda havanın hərarəti xeyli yüksək olur. Çökəkliklərdə və dağların aşağı hissəsində bitkilərin vegetasiya prosesi kəsilmir. Portağal və mandarin ağacları bizdəki xurma bağlarında olan kimi yetişən qızılı rəngdəki meyvələrini qışda da saxlayırlar.

Yay, ümumiyyətlə, quraqlıq keçir. Sahil zonalarında dəniz mehi istini mülayimləşdirir, biz bunu xüsusən adalarda hiss edirdik.

Yunanıstanda meşələr azdır, kolluqlar daha geniş yayılmışdır. Onların ən tipik nümayəndəsi zeytundur. Bu həmişəyaşıl ağac kiçik yarpaqlara və geniş çətirə malikdir. Zeytun plantasiyaları, adətən, təpələrin yamaclarında və daşlıq vadilərdədir.

Yunanıstan üç materikin qovuşmasında yerləşdiyinə görə ölkənin faunası qarışıq xarakter daşıyır. Meşələr az olduğuna görə ölkənin heyvanlar aləmi məməlilər barədə kasıbdır. Quş faunası isə müxtəlif olmaqla yanaşı, həm də boldur.

Egey dənizinin adalarına gəldikdə, Krit adasının bitki örtüyü və heyvanat aləmi özünəməxsusdur və ölkənin digər ərazilərindən fərqlənir. Bu adalar yazda və yayın əvvəlində çox mənzərəli olur. Dağların yamacları üzümlüklər, zeytun meşələri, meyvə bağları ilə örtülmüşdür. Yunanlar yayın əvvəlində yetişən portağal da becərirlər.

Adaların, demək olar ki, hamısı rütubətin çatışmamasından əziyyət çəkir. Orada kiçik çaylara da rast gəlmək mümkün deyildir. İsti yayda burada içməli su hətta şərabdan baha olur. Adaların xeyli hissəsinə – Küveyt, Malta və Kıprıs (Şimali Kipr) ölkələri kimi içməli su kənardan gətirilir.

Təbii şəraitin insanlara təsiri

Dağlıq ərazi və dənizlərlə əhatə insan xarakterinin və iradəsinin möhkəmləndirir, onu qeyri-adi qaydadakı işgüzarlığa öyrədir. Təbiət heç nəyi yunanlara zəhmətsiz, hazır şəkildə verməmişdir. Belə şəraitdə yaşayanlar kiçik nəticə üçün böyük əmək sərf etməli olur, onlarda tənbəllərə heç də xas olmayan ehtiras və torpağa güclü bağlılıq hissləri yaranır. Qədim yunanlar nə ilə məşğul olurdularsa, ona ehtirasla girişir, uğur naminə hər cür fədakarlığa gedirdilər. Onların elmə, mədəniyyətə, şəhərsalmaya qızğın bağlılıqları xarakterlərinin cilalanmasından xəbər verirdi.

İstənilən sahədə ehtiraslı fəaliyyət, özünü hansısa bir işə ehtirasla həsr etmək olduqca faydalı, həm də böyük nəticələr verir. Yunanların fəlsəfədə, elmin digər sahələrində, arxitektura və hərb sənətindəki qazandıqları yenilikəri məhz həmin fenomenin bəhrəsi saymaq olar. Qədim yunanlar bu məsələdə müasir yaponları xatırladırlar. Yaponlar Meydzi inqilabından (1868-ci il) sonra öz müsbət ənənələrinə sadiq qalmaqla bütün sahələrdə avropalaşmağa, təhsildə və texnologitada proqressə aid olanların tətbiqinə böyük diqqət verməklə, hərbi qüdrətlərinin yüksəlməsilə xüsusi ilə məşğul oldular. Bunun sübutu kimi, qısa müddətdən sonra, 1905-ci ildə Tsusima boğazında Rusiya donanmasını darmadağın etdilər. Onlar hərb sənətinə böyük həvəs göstərir, bu işin bütün sahələrində qeyri-adi bir qaydada xüsusi ehtiras, özünü vurğunliqla həsr etmə nümayiş etdirirdilər. II Dünya müharibəsində ağır məğlubiyyətə uğradıqdan sonra yaponlar hərbi işə ehtiraslı münasibətdən uzaqlaşıb, bu güclü hissi indi də iqtisadiyyatın inkişafına yönəltdilər. Məğlub olmuş və viran qalmış ölkə, xalqın yeni fədakarlığı hesabına, bu ağır böhrandan heç 20 il keçməmiş iqtisadi inkişafdakı " Yapon möcüzəsi" ilə dünyanı heyrətə gətirdi. Tarix belə sürətli bərpa olunma və heyrətamiz inkişaf tempi görməmişdi. Qədim dünyada isə bu möcüzəni yunanlar nümayiş etdirmişdilər.

Dənizlə səfərə çıxan isə, adətən, öz torpağına qayıtmaq həsrəti ilə yaşayır, bu yolda hər cür əzablara dözür. Döyüşdə isə qədim yunan, daha dəqiq desık, spartalı hətta ölüm təhlükəsinə də məhəl qoymurdu, qələbə naminə dəlisovluğa meyil edirdi. Bu yolla onlar metalı qələbə timsalında döyüb, istədikləri bir şəklə sala bilirdilər.

Qədim yunanlar təbiətin amansız qüvvələrin qalib gəlmək yollarını aradıqda, elmə müraciət etmiş, könül tüğyanını yatırtmaq üçün teatra, incəsənətə pərəstişə bərabər bir hissə sahib olmuşdular. Onlar teatr tamaşalarına baxanda, «katarsis» keçirirdilər, bu da könülün ağır əzablara cavab tapması, yüngülləşdirilməsi, təmizlənməsi mənasını verirdi. Həmin termini Aristotel faciə barədəki təlimində vermişdi. Bu, tamaşaçıların səhnədəkiləri seyr etmək prosesində baş verənlərə ürəkdən yanması idi.

Onlar gözəlliyin ən sadə düsturu olan simmetriyaya, proporsionallığa da ciddi fikir verirdilər və bu, arxitektura abidələrində özünü büruzə verir. Parfenonun fasadı forma və proporsiyaların möhtəşəm gözəlliyi ilə seçilir.

Yaşayış məkanının relyefinin, landşaftın və iqlimin insan xarakterinə, hisslərinə və şüuruna təsirini antropoloji nəzəriyyələr də təsdiq edir. XVIII əsrin görkəmli fransız mütəfəkkiri Şarl Monteskye özünün «Qanunların ruhu» əsərində iqlimin və landşaftın insanın həyat tərzinə, inancına güclü təsir göstərdiyini əyani misallarla göstərir. Qədim yunanlar təbiətin ecazkar qoynunda, heç də rahat olmayan guşəsində məskunlaşmışdılar, onları, ərazinin seysmik aktivliyi də özünün tez-tez qurban tələb etməsiylə narahat edirdi. Lakin bütün sahələrdə qazandıqları nailiyyətlərə görə bu xalqı, bir hissəsi olduğu təbiətin əsl möcüzəsi adlandırsaq, yəqin ki, səhv etməzdik.

Erkən tarixdə ərazini məskunlaşdıranlar

Hindistanın görkəmli siyasi xadimi, mərhum baş nazir Cəvahirləl Nehru özünün üçcildlik «Ümumdünya tarixinə baxış» əsərində qədim Yunanıstandakı inqilabi sivilizasiya dəyişikliklərini bu əraziyə gəlib çıxmış arilərin fəaliyyəti ilə izah edir. Arilərin Hindistanın şimalından çıxıb dünyaya, Avropaya yayılması güman edilir. Hətta öz fars xalqının ari mənşəli olduğunu nəzərə çarpdırmaq üçün 1935-ci ildə Persiyanın adı dəyişdirilib, farsların yaşadığı ərazinin yunanlardan gəlmiş «ariana» ifadəsinə yaxın olan İran adlandırılmışdı. Hitler isə ariləri yüksək irq səviyyəsinə qaldırmış, slavyanları, yəhudiləri və qaraçıları aşağı irq olduqlarına görə kütləvi surətdə məhv edilmələri üçün belə ağılsız və saxta, irticaçı nəzəri bir əsas yaratmışdı. Yunanıstanda arilərin yaşaması və sivilizasiya yaratması barədəki mülahizəyə Avropa ədəbiyyatında rast gəlinmir. Yalnız qədim dövrlərdə burada yaşamış pelasqlardan, axeyalılardan və dörilərdən söhbət gedir.

Qədim Afina demokratiyanı ilk dəfə siyasi quruluşa gətirən şəhər-dövlət hesab olunur, onun vətəndaşları öz iradələrinin diktəsi ilə birbaşa dövlət siyasətinin istilənən xəttinə səs verməklə, onu müəyyən edirdilər. Bu yolla Afina polisi (şəhər-dövləti) uğurla idarə olunurdu. Afinalılar xətaya yol verən ən görkəmli xadimlərini də, onların əvvəlki böyük xidmətlərinə məhəl qoymadan ostrakizmə və ya on il müddətinə sürgünə məhkum edirdilər. Afina vətəndaşı dövlət siyasətində bilavasitə və birbaşa iştirak edirdi. Səs hüququna malik olan 6 min adam dövlətin taleyinə aid olan məsələləri həll etmək yolu ilə, özünün suveren olduğunu həyatda təsdiq edirdi.

Yunanların hər məsələdən ehtirasla yapışdığını Afina və Sparta vətəndaşlarının fərqli qaydada olan timsalında görmək olar. Afinalılar fəlsəfədə, elmdə, arxitekturada, teatrda möcüzələrə xas olan nailiyyətlər qazanmışdılar. Afinanın bəxti onda gətirmişdi ki, bu şəhər çox sayda dahi şəxsiyyətlər yetişdirmişdi, əsrlər, minillər belə onların şöhrətini soldura bilməmişdi. Amerikanlarda belə bir zərb-məsəl vardır ki, “Great minds think alike, though fools seldom differ”- “Böyük ağıllar eyni qatdada düşünürlər, baxmayaraq ki, axmaqlar da bu barədə nadir hallarda fərqlənirlər.” Afinada isə böyük ağıllılar olduqca bol idi və onlar öz dövrlərini eyni qaydada şərəfləndirmişdilər.

Spartalılar isə afinalıların həyat tərzini inkar etməklə, hərbi qüdrətə malik olmaq yolunu tutmuşdular və bu sahədə əfsanəvi qəhrəmanlıqları ilə öyünə bilərdilər. Onlar ümumi təhsilə, mədəniyyətin inkişafına əhəmiyyət vermirdilər. İki müxtəlif sahədə bu iki dövlət həsəd aparılmalı, lakin bir-birinə zidd olan nailiyyətlər əldə etmişdilər. Spartalıların seçdikləri həyat tərzi tarixi inkişafa uyğun gəlmədiyindən, bu sistem tez ya gec iflasa uğramalı idi.

Bütövlükdə, yunan xalqı tarixi inkişafın uzun yolunu keçmişdir. Ən qədim mədəniyyət b.e.ə. III–II minillikdə mövcud olmuş Egey dünyasındakı Krit–Mikena mədəniyyəti idi. Onun əsas abidələri Krit adasında və Mikena şəhər-dövlətinin yerində aşkar edilmişdir. Yüksək inkişaf etmiş mədəniyyət olmaqla, ondan

arxitektura inciləri, freska rəngkarlığı nümunələri və yazılar qalmışdır. Onun yaradıcıları Şərqi Aralıq dənizinin ən qədim əhalisi olan pelasqlar idi. Sonralar onları protoyunan tayfaları sıxışdırıb çıxardılar, onlardan ən güclüləri axeyalılar və ionlular idi. Onlar bütün Balkan ərazisini məskunlaşdırdılar. B.e.ə. XII əsrdə isə dorilər gəlib orta və cənubi Yunanıstanı tutdular. Sonrakı XI–VIII əsrlər epoxasını şərti olaraq Homer dövrü adlandırırlar. Çünki həmin dövrdə baş verən hadisələr dahi şairin «İliada» və «Odisseya» əsərlərində təsvir olunur. Poemaların dili isə həmin epoxanın yüksək poeziya üslubunun abidəsi kimi qiymətləndirilir.

Hələ qədim yunanlar Homerin vəsf etdiyi kimi, öz hərbi qüdrətlərini göstərmək, rəqiblərini sıradan çıxarmaq üçün ciddiliyi şübhə doğuran bəhanə ilə Asiya qitəsinə keçmişdilər və Troya şəhər-dövlətini məhv etmişdilər. Sonrakı nəsillər isə Kiçik Asiyanın geniş düzənliklərini görəndə təəccüblənmişdilər, axı öz ölkələrində əkinçiliklə məşğul olmaq üçün olduqca kiçik sahələrə malik idilər. Onlar belə geniş düzənlik ərazilərin mövcudluğunu ağıllarına da gətirə bilməzdilər.

B.e.ə. VII–VI əsrlərdə qədim Yunanıstan özünün gur iqtisadi və mədəni inkişafını yaşadı. Kənd təsərrüfatı və sənətkarlıq ayrıca sahələrə çevrildi. İlk məbədlər tikildi, gəmilər qayırıldı, ticarət inkişaf etməyə başladı, şəhərlər ticarət-sənətkarlıq mərkəzlərinə çevrildilər. İlk dövlətlər sayılan polislərin yaranması baş verdi.

Afina Attika vilayətinin mərkəzi oldu, onun əleyhdarı isə, bütün sahələrdə ona əks olan, Peloponnesin cənub hissəsində yerləşən Sparta idi.

Spartalıların fərqli həyat tərzi

Spartalıların məşhur hərbi sənət bacarığı, oğlan uşaqlarının çox ciddi intizama cəlb edilməsi və sərt məşq etdirilməsi hesabına əmələ gəlirdi. Buradan da «Sparta tərbiyəsi» ifadəsi meydana gəlmişdi.

Spartalılarda oğlan uşaqlarının tərbiyəsi tam fərqli idi, onlar 7 yaşından ailələrindən ayrılıb agellərə (hərfi mənada «sürüyə») verilirdi və orada sərt qaydalar əsasında yaşayır və hərbi qaydada məşq etməklə məşğul olurdular.

Sparta qadınları öz ərlərinə və oğullarına döyüşdə igidlik göstərmək xeyir-duasını verirdilər. Döyüşə gedən oğlanlarına göstəriş tipli «ya qalxanla, ya da qalxan üstündə qayıt», başqa sözlə, «ya qalib kimi, ya da həlak olan kimi qayıt» sözlərini söyləyirdilər.. Arxadan yaralanmaqla həlak olanları dəfn etməkdən anaları imtina edirdilər ki, o, geri qaçanda yara almışdır. Sparta qadınlarına onların əxlaq sahəsində tam sərbəstlikləri barədə sual verildikdə, cavab verirdilər ki, «ancaq biz belə igid oğlanlar doğuruq».

B.e.ə. 480-ci ildə Persiya çarı Kserksin komandanlığı altında 200 min nəfərlik ordunun qarşısını Fermopil keçdikdə son mərhələdə 300 spartalı kəsmişdi. Onların igidlikləri barədə əhvalat əfsanəyə çevrilərək, min illər keçdikdən sonra da

ehtiramla xatırlanır. Onlara Sparta çarı Leonid başçılıq edirdi. İlk anda onlarla bir yerdə olan 1000 nəfərli yunan əsgəri sonra döyüş meydanını tərk etmişdi və nəhəng düşmən ordusu qarşısında yalhız spartalılardan ibarət kiçik dəstə qalmışdı. Kserks Leonidə qasidlə xəbər göndərmişdi ki, biz o qədər çoxuq ki, nizələrimizi göyə qaldırsaq, günəşin qabağını tutarıq. Leonid spartalılara xas olan bir qaydada ona lakonik cavab vermişdi: «Nə eybi var, kölgədə də vuruşarıq».

Axırıncı, dördüncü döyüş günü başlananda Leonid əsgərlərinin bəzilərinin pərişan olduğunu görüb, bu sözlərlə onları səhər yeməyinə dəvət etdi: «Onsuz da şamı cəhənnəmdə edəcəyik, gəlin yeməyinizi yeyin». Əsgərlərin ruhu yüksəldi və onlar ölüm barədə düşüncələrini kənara atıb, şadyanalıqla və iştahla çörəklərini yedilər.

B.e.ə. IV əsrin əvvəllərində Sirakuza tiranı I Böyük Dionis Spartaya gələndə onların məşhur şorbasını dadmış, xoşuna gəlmədiyinə görə aşpaza xörəyə ədviyyat qatmaması barədə iradını bildirmişdi. Aşpaz ona cavab vermişdi ki, «Bizim xörəyin ədviyyatı gecə yürüşlərindəki yorğunluğumuz və alın tərimizdir». Tiran da anlamışdı ki, belə qidalananlar, həqiqətən də, ölümdən qorxmamalıdır.

Spartada hər şey hərb sənətinin mənimsənilməsinə tabe edilirdi. Spartaplılarda var-dövlət, dəbdəbəli həyat tərzi hərisliyi də yox idi, çar da, sadə adamlar da ümumi ictimai yeməkxanada eyni xörəyi yeyir və söhbət aparırdı. Pul iri dəmir lövhələrdən ibarət idi. Orta bir məbləği öküz arabasında daşımaq olardı və bu pul bir otağı tuturdu. Sparta çarı Likurqun qanununa görə, vətəndaşların ölkədən kənara çıxmasına və əcnəbilərin ölkəyə daxil olmasına icazə verilmirdi ki, pis təsir spartalıların mənəviyyatını poza bilər.

Yunan koloniyaları. Ellinlər

Yunanlar başqa ərazilərdə də koloniyalar yaradırdılar. Daha varlı şəhər-dövlətlər Aralıq dənizi və Qara dəniz sahillərində belə yaşayış məntəqələri salırdılar. Dənizçiliyin inkişafı bu proseslərə kömək edirdi. Bir çox koloniyalar yerli xalqlar arasında qədim yunan sivilizasiyasının tarixi mərkəzləri oldu. Koloniyalarda ümumyunan dili yerli dialektləri tədricən sıradan çıxarırdı. Ölkəni məskunlaşdıran xalqın özşüuru onun «ellin» adında ifadə olunurdu. Zaman keçdikcə bütün yunandilli əhali ellin adlanmağa başlandı. Romalılar cənubi İtaliyanın yerli kolonistlərini də (məsələn, Neapol şəhərinin sakinlərini) bu adla adlandırırdılar.

Ellinlər Avropa xalqlarının elmində, incəsənətində və ədəbiyyatında pozulmayan iz qoymaqla, qüdrətli sivilizasiya yaratmışdılar. Qədim Yunanıstanın mədəniyyəti – mifologiyası, fəlsəfəsi, inşaat və təsviri sənət sahəsindəki bilikləri hər bir adi təhsil görmüş adama da məlumdur.

B.e.ə. IV əsrin ortalarında yunan şəhərləri üzərində ağalıq hüququnu Makedoniya sülaləsi ələ keçirdi. Aleksandr Makedoniyalının (b.e.ə. 356–323-cü

illər) nəhəng, lakin uzun ömrü olmayan imperiyası Cənubi-Şərqi Avropada, Cənubi-Qərbi Asiyada və Şimali-Şərqi Afrikada geniş ərazilərə malik idi. Ona görə də ellinist adlanan mədəniyyətə (b.e.ə. VI əsrin sonu – I əsrə aid olan dövrdə mövcud olmuşdu) yunan və Şərq ənənələrinin vəhdəti xarakterikdir.

Aleksandrın ölümündən sonra onun imperiyası bir neçə dövlətə – ellinist monarxiyalarına parçalandı. Ellinizm epoxasının özündə (b.e.ə. II əsrdən başlayaraq) Balkan yarımadasında Roma imperiyasının hakimiyyəti bərqərar oldu. Əvvəlki yunan şəhər-dövlətlərinin yerində Roma əyalətləri meydana gəldi. Bizim eranın IV əsrində isə Roma imperiyası iki hissəyə – Qərbi və Şərqi Roma imperiyalarına parçalandı. Şərq hissəsi yunan koloniyası olan Vizantium şəhərinin adı ilə Bizans adlandırıldı. Onun yerində imperator Konstantin 330-cu ildə tikdirdiyi şəhər Konstantinopol adlandı – Roma imperiyasının vətəndaşları kimi isə xalq romeyalar (romalılar, türklər isə bunu «rumlular» kimi ifadə edirlər) adlanırdı. Onların içərisində daha çoxsaylı və mədəni etnik birlik yunanlardan ibarət idi. Avropanın ən böyük sivilizasiyalarından biri olan yüksək Bizans mədəniyyətinin yaradılmasında yunanların böyük xidmətləri var idi. Onun fəlsəfəsi, tarixi, ədəbiyyatı, təbiətşünaslıq elmləri, xüsusən tibb elmi Balkan yarımadası, Qərbi Avropanın, həmçinin Asiya və Afrikanın bəzi vilayətlərinin inkişafına xeyli təsir göstərmişdi.

Osmanlı imperiyasının tərkibində

XIV əsrdən başlayaraq Osmanlı imperiyasının türkləri yatmayan, sakitləşməyən dalğa kimi Avropaya axışdılar. 1453-cü Mehmet Fateh tərəfindən Konstantinopolun işğalı ilə Bizans imperiyası öz mövcudluğunu itirdi və keçmiş imperiyanın paytaxtı İstanbul adlandırıldı. Yunanlar çox sayda vergilərə məruz qaldı, onlardan ən ağırı «qan ianəsi» idi. Bu, böyük imtiyaza sahib olan yeniçərilərin hərbi hissələrini doldurmaq üçün oğlan uşaqlarının məcburi qaydada seçilib yığılması idi. Uşaqları ailələrindən ayırıb sultana, həm də islam dininə fanatik sədaqət ruhunda tərbiyə edirdilər. Xeyli müddət ərzində onlara evlənməyə də icazə verilmirdi, həyatın mənasını onlar yalnız nümunəvi hərbi xidmətdə görürdülər. Osmanlılar Spartalıların ənənələrini bir qədər dəyişərək, daha dəhşətli etməklə, mahiyyət etibarilə davam etdirirdilər.

Yunan xalqı yadelli qəsbkarlarla barışa bilməzdi. Kəndli üsyanları baş verirdi. Bir sıra dağ vilayətləri, həmçinin Kerkira adası heç vaxt türklərə tabe olmamışdı. 1822-ci ildə Yunanıstanın müstəqilliyi elan edildi. Lakin türklərə qarşı müharibə hələ uzun illər davam etdi. Avropa ölkələrindən üsyançılara kömək göstərmək üçün könüllülər gəlirdi, onların arasında böyük ingilis şairi Corc Bayron da var idi. Nəhayət, 1830-cu ildə Yunanıstan müstəqil dövlətə çevrildi. Dörd il sonra isə Afina dövlətin paytaxtı elan edildi.

İkinci Dünya müharibəsində İtaliya yunanların ərazisinə müdaxilə etdi. Yunanlar «Oxi!» – yunan dilində «Yox!» şüarını irəli sürdülər. Ümumiyyətlə, indi

də adamlar bu sözü nitqlərində çox işlədirlər. 28 noyabr – «Oxi günü», yunan xalqının milli bayramı kimi qeyd edilir.

1941-ci ildə Yunanıstana alman faşist ordusu soxuldu və xalq kütləsi partizan müharibəsinə başladı. 1944-cü ildə Xalq Azadlıq Ordusu (ELAS) bütün əraziləri faşist işğalçılarından azad etdi. 1946-cı ildə monarxiya quruluşu elan edildi, xalq mübarizəyə qalxsa da, üç il sonra vətəndaş müharibəsi yatırıldı və çox sayda mübariz doğma vətənini tərk etməyə məcbur oldu. Onlardan xeyli hissəsi SSRİ-yə mühacirət etmişdi

1973-cü ildə onların böyük dəstəsi vətənə qayıtdı və ümumiyyətlə, yunan mühacirlərinin repatriasiya prosesi başlandı.

Yunan dili və şəhərlər

Yunanıstan bircinsli etnik tərkibə malikdir. Əhalisinin 96 faizi yunanlardır. Son illərdə Yaxın Şərqdən, Afrikanın şimalından və Əfqanıstandan qaçqın axını bu ölkəyə də üz tutmuşdur. Monoetnik əhalisi olan, digər avtoxton xalqları qovub ata-baba yurdundan qovmaqla, səhranın qumunun rəngini andıran vahid millətə malik olması ilə öyünən Ermənistanla isə heç bir ölkə müqayisə oluna bilməz, bu vaxt əgər Sakit okeanının kiçik adalar ölkələri nəzərə alınmasa.

Yunanların canlı xalq dili diametikadır. Rəsmi ədəbi dil isə kafarevusdur («təmiz dil» mənasını verir). Kafarevusa milli mədəniyyətin simvolu – antik dövrün varisi kimi baxılır.

Yunanıstanda ənənəvi olaraq Bizans imperiyası dövründən ortodoks (pravoslav) dini yayılmışdır. Ölkədə cəmi 10 milyona yaxın əhali yaşayır, Rusiyada olduğu kimi, qadınlar kişilərdən çoxdur, axırıncıların çoxu iş tapmaq üçün əcnəbi ölkələrə mühacirət edirlər.

Hələ qədimdən Yunanıstanda yüksək inkişaf etmiş dənizçiliyə və ticarətə görə, həmçinin becərilən torpaqların çatışmaması ucbatından şəhər həyatı xeyli inkişaf etmişdir. Şəhərlərin əksəriyyəti keçmiş zamanlardan meydana gəldiyindən, onlarda köhnə planlaşma və antik dövrün çox sayda gözəl abidələri qalmışdır. Liman şəhərləri ölkədə çoxluq təşkil edir. Çünki dəniz nəqliyyatı iqtisadiyyatda mühüm yer tutur. Yunan milyarderi Aristotel Onassis yük gəmilərinin, xüsusən 1956-cı ildə Süveyş kanalı böhranı vaxtı neft daşıyan tankerlərin kirayəyə verilməsindən və fraktından böyük var-dövlət qazanmışdı.

Kənd təsərrüfatının da ümumi daxili məhsul istehsalında payı çoxdur. Ölkə başlıca olaraq tütün, zeytun, üzüm və sitrus meyvələrinin ixracı üzrə ixtisaslaşmışdır. Ən qədim məhsuldar bitki növlərindən biri üzümlə yanaşı, zeytundur. Zeytun yağı istehsalına görə Yunanıstan İspaniya və İtaliyadan sonra dünyada üçüncü yeri tutur. Mərkəzi və Cənubi Yunanıstanda zeytun torpaqları 0,5 milyon hektar sahəni tutur.

Yunanıstan ənənəvi beynəlxalq turizm ölkəsidir. Bütün böyük şəhərlər və iri adalar öz aralarında hava yolları ilə əlaqə saxlayır. Əcnəbi turistlər füsunkar antik

abidələrə, xüsusən arxeoloji muzeylərə böyük maraq göstərirlər. Burada qədim yüksək sivilizasiyanın, ötən minilliklərin və əsrlərin qiymətli izlərini az qala addımbaşı görmək mümkündür. Antik dövrün abidlərinə – məbədlərin, qalaların, teatrların, su kəmərlərinin qalıqlarına həm materikdə, həm də adalarda rast gəlinir. Axı orada şəhərlər də, kəndlər də qədimdir. Onlar ötən əsrlərin həyatını və üslubunu əks etdirirlər. Antik şəhərlərə ictimai yığıncaqların, açıq teatr tamaşalarının keçirildiyi geniş meydanlar xas idi. Bizans dövründən isə köhnə məhəllələrdəki dar küçələr qalmışdır.

Yunan incəsənəti və fəlsəfəsi

Lap qədimdən yunanlar musiqi sənətinə mühüm tərbiyəvi amil kimi baxırdılar. Elə bir bayram yoxdur ki, onda mahnı oxunmasın, rəqs edilməsin. Yunan üçün rəqs başqa xalqlarda olan kimi təkcə əyləncə deyildir, o, hərəkətin ritmində həm sevinci, həm də qüssəni ifadə edir. Rəqs vasitəsilə istirahət etmək yunanların milli xarakteridir. Bizim yallı tipli rəqslərə daha çox rast gəlinir. Onun ən geniş yayılmış növü «Sirtaki»dir. Ən köhnə rəqslər ibadət vaxtı ifadə edilən mərasim rəqsləridir. Adətən, rəqslər musiqidən başqa, mahnı oxunması ilə müşayiət olunur. Lira, fleyta, skripka kimi alətlərlə yanaşı, gözəl səs tembri ilə seçilən buzukidən də istifadə olunur. Buzukini yunanlar Şərqdən götürmüşlər, lakin ən çox yayılan milli musiqi alətinə çevrilmişdir.

“Sirtaki” rəqsi

Quldarlıq epoxasında yunanlar incəsənətdə mürəkkəb yol keçmişdir. Klassik dövrün (b.e.ə. V–IV əsrlər) bütün dünyaya məlum olan əsərləri antik mədəniyyətin bədii dəyərini bütünlüklə təcəssüm etdirir. Bu əsərlər digər xalqların incəsənətinə böyük təsir göstərmişdir. Renessans dövründə Qərbi Avropanın rəngkarlığı və heykəltəraşlığı ideal nümunə kimi antik irsə müraciət etmişdi.

Qədim yunan fəlsəfəsi b.e.ə. VII–VI əsrlərdə quldarlıq cəmiyyətinin inkişafı və möhkəmlənməsi dövründə meydana çıxdı. Bu fəlsəfə özündə Avropa

fəlsəfəsinin rüşeymlərini daşıyırdı, axırıncı isə intibah epoxasında inkişaf etməyə başladı.

B.e.ə. V əsrdə Sokrat özünün çox saydakı şagirdləri ilə apardığı canlı söhbətlərdə idrakın və əxlaqın əsaslarını axtarmağa səy göstərdi. Onun şagirdi Platon (b.e.ə. V əsrin sonu – IV əsrin birinci yarısı) idealist fəlsəfənin əsasını qoydu. Platonun yaratdığı Akademiyada antik cəmiyyətin görkəmli mütəfəkkiri Aristotel (b.e.ə. IV əsr) 20 ilə qədər öz vaxtını keçirdi. Aristotelin qüdrətli ağlı o dövrdəki biliklərin hamısını əhatə edirdi, onların içərisində iqtisadiyyat da var idi. Bir çox dahilər öz elmi əsərlərində məhz Aristotelə müraciət etmişdir. Aristotel də öz növbəsində Afinada Likey fəlsəfə məktəbini yaratdı, bu ad məktəbin yaxınlığında yerləşən Apollon Likeylinin məbədinin adından götürülmüşdü. Sonralar Avropa dillərində «Likey» sözü təhsil müəssisəsinin adı kimi «litseyə» çevrildi. Platonun Akademiyası və Aristotelin Likeyi təhsil müəssisəsi olan ən məşhur gimnaziyalardan biri idi. Gənclər gimnastika ilə məşğul olurdu, bu idmanın qədim yunanlar çox yüksək qiymətləndirirdilər. Həmin gimnaziyalarda həm də elmləri öyrənirdilər.





Sokrat, Platon və Aristotelin təsvirləri

Antik fəlsəfənin üzə çıxarılmasında, tərcümə edilməsi və geniş ərazilərdə yayılmasında ərəblərin Abbasilər xilafətinin böyük xidmətləri olmuşdu. Onlar «faylsaf» elminə çox maraq göstərir, Platonu və Aristoteli xüsusən öz dillərinə uyğun qadada «Əflatun» və «Ərəstun» adlandırırdılar. Bu dahi filosofların əsərləri tərcümə edilərək, yayıldıqda Kordobaya gətirilmiş, oradan isə bu elmə yaxınlaşmaqda ilk addım atmaq istəyən digər Avropa ölkələrinə çatdırılmışdı.

Sokratın dövründə «Təbabətin atası» Hippokrat da yaşamışdı. O, əyalətləri dolaşan həkim idi, kasıb adamları müalicə edərək, bir yerdən başqa yerə keçirdi. «Hippokrat andı» tibbin humanist məqsədlərinə sədaqətlə xidmət etmək vədi olmaqla, bu gün də təbabət elminə ilk dəfə daxil olan həkimlər tərəfindən həmin andın içilməsi təcrübəsi davam etdirilir.

Ümumiyyətlə, dünya elmində və incəsənətində dərin iz qoymuş çox sayda yunanların adlarını iftixar hissi ilə çəkmək olar.

Miflər, Afina abidələri

İdeologiyanın ən qədim forması olan miflər, həqiqətən, özünəməxsus qaydada fantastik təsir qüvvəsinə çevrilməklə nəinki qədim yunan dilinin, həmçinin ədəbiyyatının, teatr və təsviri sənətinin bünövrəsinə qoyuldu. Böyük yunan dramaturqları Esxil (b.e.ə. VI–V əsrlər), Sofokl (b.e.ə. V əsr), axırıncının gənc müasirləri olan Evripid və komedioqraf Aristofan (b.e.ə. V əsr – IV əsrin əvvəli) öz əsərlərinin süjetlərini və qəhrəmanlarını bu miflərdən götürmüşdülər. Sofoklun "Çar Edip", "Antiqona", "Elektra" pyesləri indi də teatr səhnələrini bəzəyir. Qədim yunan dramı Roma teatrına, Avropa mədəniyyətinə, Renessans və Maarifçilik epoxalarına öz təsirini göstərdi. Böyük fransız dramaturqu Jan Rasin yunan mifologyasından ilhamlanıb, «Fedra» pyesini yazmışdı.

Yunanlar Bizans mədəniyyətinin inkişafına da sanballı töhfə verdilər. Antik epoxanın irsinə Avropada, Yaxın və Orta Şərqdən gələn motivlər və təsirlər əlavə olunurdu. Yunan tarixinin Bizans dövründə arxitektura, ikona rəssamlığı, kilsəyə məxsus və dünyəvi monumental rəngkarlıq, mozaika, kitab miniatürləri böyük inkişafa çatdı.

XIX əsrin ikinci yarısında maarifin və elmin yüksəlişi dövründə ölkənin əsas muzeyləri, Afinadakı Milli Arxeologiya Muzeyi və Akropol Muzeyi yaradıldı. XX əsrin ortalarında bəstəkar Mikis Teodarakisın məşhur musiqi əsərləri meydana çıxdı. Yannis Ratsos və Nobel mükafatı laureatı Georqas Sefenresin əsərləri böyük şöhrət tapdı.

Yunanıstanın baş şəhəri olan Afina Avropanın ən köhnə paytaxtı olmaqla, həm də öz sirdaşları arasında ən gənci hesab olunur. Afina bütün antik dünyanın tanınmış elmi və mədəni mərkəzi idi, o dövrdə müasir Avropa paytaxtlarından əksəriyyəti heç mövcud da deyildi. Burada həyat 5 min il bundan əvvəl başlamışdı. XIX əsrin əvvəllərində isə dördəsrlik Osmanlı əsarətindən xilas olan Yunanıstanın paytaxtı olmuşdu. Sonralar Pirey şəhəri ona qarışmışdı. Ölkə əhalisinin üçdə biri paytaxtda yaşayır, bu məsələdə Afina Montovideo və Buenos-Ayreslə müqayisə oluna bilər.

Afina şəhərinin mənzərəsi

Klassik dövrün tikililəri arasında şəhərin üzərindəki qayalıq təpədə yerləşən Akropol arxitektura ansamblı seçilir. Müxtəlif dövrlərdə yaransa da, Yunanıstan klassik arxitekturasının inciləri, memarlığın vəhdəti şəklində xoş bir təəssürat yaradır. Akropolun abidələri arasında öz mükəmməlliyinin unikal olması ilə seçilən Afina – Qız məbədi olan Parfenon seçilir. Akropolun monumental girişində, Propileydəki öz incəliyi və gözəlliyi ilə fərqlənən Erexteyon məbədi isə Afina – Nikaya (Afina – Fatehə) həsr olunmuşdur.

Akropol. Parfenon

Akropolun incilərinin onun mövcud olduğu uzun zamandan çox, məhz adamlar, özü də yadelli işğalçılar dağıtmışlar. Parfenonu Osmanlılar hərbi sursat anbarı kimi istifadə edirdilər, düşmən venetsiyalıların atdığı top mərmisi binaya düşüb barıtı partlatmışdı və bundan həmin füsunkar tikili ağır zədə almışdı.

XIX əsrdə isə Osmanlı dövlət orqanlarının razılığı ilə Akropol abidələrinin gözəl detalları, frizləri sökülərək İngiltərəyə aparılmış, o vaxtdan indiyədək Britaniya muzeyində nümayiş etdirilir. İstanbuldakı ingilis səfiri bu qarətçilikdə xüsusi canfəşanlıq göstərmişdi. Yunanıstan dövlət səviyyəsində həmin soyğunçuluq faktının böyük ədalətsizliyinin ləğv edliib, Akropolun çox qiymətli artefaktlarının qaytarılmasını tələb etsə də, Böyük Britaniya rəsmi dairələri bu eybəcərlik barədəki harayı eşitmək belə istəmir.

Akropoldan qərbdəki iki təpədə isə ağsaqallar məhkəməsinin iclas apardığı Areopaq və xalq yığıncaqları keçirilən Pinks yerləşir.

Qədim yunan arxitekturasının gözəl abidələri təkcə təpənin zirvəsində deyil, həm də onun yamaclarında və ətəyində qalmışdır. Onların içərisində b.e.ə. V–IV əsrlərin Dionis Teatrı, Periklin dövründə tikilmiş və yaxşı qalmış Oreon teatrı seçilir. Akropol təpəsinə qalxdıqda və oradan qayıtdıqda Odeon teatrının mükəmməl dairəsi və daş oturacaqları diqqəti cəlb edir. Akropla heyran olmamaq mümkün deyildir. Burada “Stendal sindromuna” məruz qalırsan. Məşhur fransız

yazıçısı Florensiyada olarkən şəhərin arxitektura inciləri ona elə bihuş edici təsir göstərnmişdi ki, elə bilmişdi ki, bu reallıq deyildir, o, sadəcə hallyutsinatsia təsiri altındadır.

Afinaya birləşmiş Pirey şəhəri Egey dənizi milanı olmaqla, ölkənin başlıca dəniz qapısı hesab olunur. Təyyarə ilə Kerkiraya uçarkən limana yaxınlaşan onlarla iri yük gəmilərini, yüzlərlə qayıqları gördük. Dəniz sularının üzərinə elə bil ki, bu gəmilərdən naxış çəkilmişdi və planetlər paradını xatırladırdı.

Ölkənin şimalında yerləşən Saloniki b.e.ə. IV əsrdə Aleksandr Makedoniyalının bacısının şərəfinə belə adlanmışdı. Bu şəhər slavyan maarifçiləri, kirill əlifbasının müəllifləri olan Kirill və Mefodinin vətənidir. Türkiyənin böyük siyasi və hərbi xadimi, respublikanın ilk prezidenti olan Mustafa Kamal paşa da həmin şəhərdə anadan olmuş, yeniyetməliyini orada yaşamışdır. Onun doğulduğu ev indi Atatürk muzeyinə çevrilmişdir. Trabzonda gördüyümüz prezidentə hədiyyə edilmiş gözoxşayan bir ev də müasir Türkiyənin xilaskarı və banisi Mustafa Kamal Atatürkün zövqünü və dəbdəbədən uzaq olan həyat tərzini nümayiş etdirir.

Qərbi Yunanıstanın qurtaracağının cənubunda XIX əsrin əvvəllərində ölkənin müstəqilliyi uğrunda mübarizəsi ilə şöhrət tapmış Mesolonqion şəhəri yerləşir. Böyük ingilis şairi ser Corc Bayron şəhərin sakinlərinin Osmanlı əsarətinə qarşı mübarizəsində yaxından iştirak etmiş və 1824-cü ildə orada da ölmüşdür.

Şərqi Yunanıstanda ən iri ada olan Krit xüsusi yer tutur. Orada 0,5 milyon sayda əhali yaşayır. Qədim yunan mifologiyasındakı hadisələrin və qəhrəmanların xeyli hissəsi bu ada ilə əlaqədardır. Krit yalnız 1913-cü ildə Yunanıstanın tərkibinə daxil olmuşdur.

Bu ada Krit-Mikena mədəniyyətinin mərkəzlərindən biri kimi məşhurdur, deməli, Avropa mədəniyyətinin ən qədim ocaqlarından biridir. Adada şəhərlər b.e.ə. XX əsrdə meydana gəlmişdir. Bu mədəniyyətin abidələrinin bir çoxu adanın ən böyük şəhəri olan Herakliondakı Arxeoloji Muzeydə toplanmışdır.

Şəhərdən 5 km məsafədə aralıda məşhur Knossos sarayı yerləşir və onun qalaları bu istedadlı və yaradıcı xalqın necə böyük memarlıq, rəssamlıq və heykəltəraşlıq qüdrətinə malik olduğunu göstərir. Saray iki hektar sahəni tutur.

Knossos sarayı

Əfsanəyə görə, çar Minosun göstərişi ilə Dedal, çarın arvadının doğduğu yarıöküz, yarıinsan olan Minotavrı saxlamaq üçün labirint tikdirmişdi. Minotavr hər il ona qurban kimi göndərilən onlarla Afina gənc oğlan və qızını parçalayırdı. Tesey onu öldürmək üçün belə bir qrup gəncə qoşulub, Minotavrı məhv etmək məqsədilə labirintə girmiş, işini gördükdən sonra oradan yalnız ona vurulan çarın qızı Ariadnanın bağışladığı sap kələfinin köməyilə çıxa bilmişdi. O, labirintə daxil olarkən kələfi çözələmiş, Minotavrı öldürdükdən sonra sapın izi ilə labirintdən çıxa bilmişdi. Əvvəllər isə heç kəs bu dolaşıq labirintdən çıxa bilməmiş, Minotavrın qurbanı olmuşdu. Mifdə təsvir olunan labirint, çar sarayının çox sayda otaqları olduğuna görə onun simvolu rolunu oynayırdı. Müasir arxeoloqlar isə güman edirlər ki, Knossos sarayının altında zirzəmi tikilimiş və bu, labirint rolunu oynayırmış.

Minotavr isə çar Minosun arvadı Pasifaya vurulduğu öküzlə Dedalın düzəltdiyi qurğunun köməyi ilə intim yaxınlığa girməyin nəticəsi kimi meydana gəlmişdi. Yunan miflərində olan kentavrlar kimi, Minotavr da yarıinsan, yarıheyvan idi.

Minotavrı öldürən Tesey isə labirintdən məhz Ariadnanın icadı ilə çıxa bilmişdi. Buradan da «Ariadna sapı» termini meydana gəlmişdi. Həqiqətən də, tamaşa etdiyimiz Knossos sarayı iri mərtəbəli və çox otaqları olduğuna görə labirint təsiri bağışlayır, sarayın dörd mərtəbəli binaları var idi. Qədim Yunanıstanın heç bir şəhəri Knossosla müqayisəyə girə bilməzdi.

İngilis arxeoloqu ser Artur Evans 1894-cü ildə Kritə gəlib, burada qazıntı aparmış, torpağın altından qədim mədəniyyətə aid xeyli faktiki sübutlar tapmışdı. Tarixdən əvvəlki yazılar da onların arasında idi. Birinci Dünya müharibəsi onun işini dayandırmışdı və qeyri-adi nəticələrə səbəb olan bu tədqiqat 1922-ci ilə qədər davam etmişdi, böyük xidmətinə görə sarayın qarşısında onun büstü qoyulmuşdur. Axı 1941-ci ildə 90 yaşında ölən məşhur arxeoloq ömrünün yarım əsrini Minoy sivilizasiyasının axtarışına və kəşfinə həsr etmişdi. Knossos sarayının qalıqları sonralar bir qədər təmir və bərpa edilmişdir.

Krit adası qədim dövrlərdə həmçinin Roma imperiyasının, Bizansın ərazisi olmuş, onu ərəblər və venetsiyalılar işğal etmiş, 1669-cu ildən isə 250 ilə qədər Osmanlı imperiyasının tərkibində olmuşdu.

Zeytun bitgisi üzrə tədqiqatlarla tanışlıq

Uçduğumuz aerobus qısa müddətdən sonra Kritdəki Xanya təyyarə meydanında yerə endi. Bizi yerli zeytunçuluq elmi-tədqiqat institutunun direktoru qarşıladı. Səhərisi günü institutun elmi işləri ilə tanışlığımız başlandı. Burada otaqlarda duman əmələ gətirən mühitdə zeytun qələmələrinin sürətlə yetişdirilib, tingliyə çevrilməsini gördük. Həmin metod zeytun bitkisinin sürətlə böyüməsinə şərait yaradır.

Kritdə zeytun bağlarının sahəsi böyük olduğundan payızda məhsulu yığmağa işçi qüvvəsi çatışmır və ölkənin şimalından buraya meyvə yığmağa adamlar gəlir. Yığım gələn ilin aprelinə qədər avam edir. Ağacların altında qara politetilen pərdə salınır və yetişmiş meyvələr onun üstünə düşür. Və sonra toplanıb götürülür. Zeytun ağacları həm də uzunömürlülüyü ilə seçilir, Afinada, deyilənlərə görə, hələ Platonun dövründə əkilmiş zeytun ağacı indiyədək durur və məhsul verir. Onun qocalıqdan və məhsul verməməkdən xilasının yeganə səbəbi ağacın gövdəsinin dərin budanmasıdır. Gövdə nə qədər qoca olsa da, onun köhnə budaqları budandıqda fəaliyyətini bütünlüklə saxlayan kök sistemi hesabına gövdədən yeni pöhrələr qalxır, böyüyür və məhsul verir. Burada belə qocalmış, fırlarla örtülü gövdəsi, lakin cavan budaqları olan ağaclara tez-tez rast gəlmək olur. Onlar qocalıq payızında ötüb-keçən baharı saxlamağa çalışan və qışın onları haqlamasına imkan vermək istəməyən, möcüzəli fiquralara və sifətə malik olan çox yaşlı qadınları xatırladırlar.

Zeytun bağları

Bizim institutun fəaliyyəti ilə yaxından maraqlandığımızı görən cavan bir alim Azərbaycandan gəldiyimizi bildikdə «Sizin özünüzün çox istedadlı zeytunçu tədqiqatçınız vardır və biz elmi jurnalda onun dərin məzmunlu məqalələrini diqqətlə öyrənirik» – dedi. O, İrina Jiqareviçin adını çəkdi. Quba Meyvəçilik Elmi-Tədqiqat institutunda çalışan bu qadın zeytun bağlarına müqəddəsliyə xas olan bir şəkildə yanaşır. Respublikamızda bu faydalı bitkinin aqrotexnikasını işləyib hazırlayır və onun arealının genişləndirilməsi barədə qiymətli təkliflər irəli sürürdü. Doğrudan da, bu həmişəyaşıl bitki təkcə qiymətli ərzaq məhsulu verməsi ilə seçilmir, həm də gözəl çətiri ilə Abşeron yarımadasının landşaftına gözəllik verir.

İnstitutun direktoru bizi Rumıniya istehsalı olan hərbi cipində bağlarla tanış olmağa aparırdı. Yunan mifologiyasında allahların dünyaya gəldiyi Omalos dağını da görə bildik.

Kritin böyük şəhəri olan Herakliona getdik. Yol üstündə biz müasir və qədim metodla zeytun yağı istehsal edən zavodların işi ilə tanış olduq. Müasir zavodlarda zeytunun əti çəyirdəyindən ayrılır və presslərdə sıxılıb yağa və tullantı kimi jmıxa çevrilir. Köhnə zavodlarda zeytun dənələri iri dəyirman daşını andıran

firlanan daşlar arasında sıxılıb əzilir və olduqca təmiz yağ alınır. Qədim üsulla istehsal edilən zeytun yağı zərərli komponentlərdən daha yaxşı təmizləndiyinə və onlardan tamamilə azad olunduğuna görə bazarda 2-3 dəfə baha satılır.

Yunanlarda, ümumiyyətlə, zeytuna xüsusi münasibət mövcuddur, bu bitkinin xüsusi qəyyumları ilahə Afina və allah Zevs hesab olunur. Dünyada həm də zeytun ağacının budağı sülh rəmzi hesab olunur. Misir prezidenti Ənvər Sədat 1973-cü ilin oktyabrındakı Ərəb-İsrail müharibəsində ölkəsi ağır məğlubiyyətə düçar olduqdan və xeyli ərazisi işğal edildikdən sonra, 1977-ci ilin noyabrında Yerusəlimə diplomatik səfər edərkən, Knessetdəki çıxışında dedi ki, mən bura zeytun budağı ilə gəlmişəm və ümid edirəm ki, siz bunu düzgün qəbul edəcəksiniz. İki il sonra iki dövlət arasında sülh müqaviləsi imzalandı və işğal edilmiş Sinay yarımadası Misirə qaytarıldı.

El Qrekonun doğma kəndi

Herakliona tərəf irəliləyəndə yoldakı bələdçi nişanı yaxındakı kəndin Fodele olduğunu bildirirdi və bizə dedilər ki, bu, məşhur rəssam Dominiko El Qrekonun (1541–1614-cü illər) anadan olduğu və gəncliyini keçirdiyi kənddir. Gənc rəssam təhsilini təkmilləşdirmək üçün əvvəlcə İtaliyaya getmiş, orada Renessans rəssamlarının yaradıcılığını öyrənmişdi. Oradan isə İspaniyaya yollanmış, ömrünün sonunadək Toledo şəhərində yaşayıb-yaratmışdı. Onun əsl soyadı Teotokonuli idi. İspanlar isə yunan olduğuna görə onu El Qreko adlandırırdılar. O, mistik ekzaltasiyaya meyil etməklə, öz sənətini manyerizmə yaxınlaşdırmışdı. Onun «Toledonun görünüşü» tablosu bu gün də şəhərin konfiqurasiyasını realistik qaydada təsvir etdiyinə görə seçilir. Biz kəndə getdik, onun anadan olduğu evin və xaç suyuna çəkildiyi kilsənin xarabalıqlarını gördük. Minnətdar həmvətənləri ona kiçik, lakin səliqəli bir muzey düzəltmişlər, yalnız reproduksiyalardan ibarət olan muzeyin eksponatlarına tamaşa etdik. İki il sonra mən İspaniyada işgüzar səfərdə olarkən Toledo şəhərində böyük rəssamın ev-muzeyində də oldum. Orada bələdçilərə onun anadan olduğu kənddə də olduğumu dedikdə, ispan dostlarımız təəccüblərini gizlətmədilər.

El Qreko. “Tolednun görünüşü” tablosu

Heraklion Arxeoloji Muzeyi

Heraklion Arxeoloji muzeyi bizə olduqca böyük təsir göstərdi. Bu muzeydəki eksponatlar zənginliyinə görə heç də Afina Arxeoloji Muzeyindən geri qalmır və məndə pozulmaz təəssürat yaratdı. Burada Poseydonun qranitdən yonulmuş, insanın fiziki ölçüsündəki heykəli yüksək ifadəliliyi ilə seçilir, gözləri isə qiymətli daşdan düzəldildiyindən işıq saçır.

Heraklion muzeyi

Muzey artefaltlar vasitəsilə Qədim Elladanı bizim günlərimizə gətirib çıxarır. Orada çox sayda amforalar, pifoslar nümayiş etdirilir, axı qədim yunanlar təkcə zeytun yağını və şərabı deyil, taxılı da iri saxsı küpələrdə saxlayırdılar. Dulusçuluq qədim Yunanıstanda çox inkişaf etmişdi, aparıcı sənətkarlıq sahələrindən biri hesab olunurdu. Bəşəriyyət çox şeyə görə qədim yunanlara – kritlilərə və afinalılara borcudur. Yunan ağlı zamanından qabağa gedərək güclü qaydada işləyirdi və onun əli dəydiyi yerdə hökmən yaradıcılıq, kreativlik elementləri meydana çıxırdı. Böyük mütəfəkkir Tomas Morun başqa məqsədlə işlətdiyi təbirdən istifadə etsək, yunanların əli dəydiyi şey qızıla çevrilirdi. Beləliklə, onlar əlkimyaçıları xeyli qabaqlamışdılar. Muzey özü də bu qiymətli nümunələri bolluqla təklif edir.

Krit adası qədim tarixi ilə öyünə bilər. Axı yunanların ali allahı, Olimp ilahi qüvvələrinin lideri olan Zevs burada anadan olmuş, doğulan uşaqlarını yeyən atası Kronosu öldürüb, cəhənnəmə göndərmişdi. Krit-Mikena mədəniyyəti burada yaranmış və inkişaf etmişdi. İlk dəfə Б xətt yazısı burada icad edilmişdir.

Knossos sarayı

Heraklion şəhərinin yaxınlığında Knossos sarayının geniş kompleksi yerləşir. Sarayın tikintisi b.e.ə. XX əsrdən başlayaraq, XVI əsrə qədər davam etmişdir. Sarayın tikililəri arasında çoxlu otaqları olan binalar var idi. Qədim tarixçilər Knossosu «geniş» və «böyük şəhər» kimi təsvir edirlər. Onun tarixi təcrübəsi b.e.ə. 2800-ci illə 1100-cü il arasında ölçülür. Burada ilk irəli çıxmış Avropa sivilizasiyası yaranmışdı. Əfsanəvi çar Minosun adı ilə bu, Minoy sivilizasiyası adlanır.

Binalardakı hər bir otaq xüsusi qaydada fəaliyyət göstərirdi. Knossos mifoloji və tarixi mənzərəyə malik idi, bu miflər qədim ənənələrə müvafiq olaraq Herodot və Fukidid kimi tarixçilərin əsərlərində saxlanmışdır. Mifik şəxslər olan Ariadna və Tesey barədəki əhvalatları sarayın dəhlizləri və həyətləri yada salır. Kritin ümumi tarixi minoslulaın kim olduğunu və onların harada yaşadıqlarını bildirir. Homer "Odisseya"da göstərir ki, "onların şəhərləri arasında ən böyük şəhər Knossos idi", orada Minos 9 yaşlı uşaq olanda hakimiyyətə gəlmişdi, böyük Zevsin geriyə atdığı addımı o, müdafiə etmişdi.

Afina tarixçisi Fukidid Minos haqqında yazırdı ki, o, güclü donanma quran və yunan dənizinin böyük hissəsində nəzarət əldə edən ilk tanınan bir şəxs idi. Minos ilahi mənşəyə malik idi, allahların özü tərəfindən çar təyin edilmişdi. Zevsin Kritə qaçırdığı Yevropa ondan Minosu doğmuşdu. Anasının başqa birinə ərə getməsi ilə Minos taxt-taca yiyələnmişi. Arvadı Pasifaya digər uşaqları ilə yanaşı, gözəl ağ öküzlə ehtiraslı intim yaxınlığı nəticəsində Minotavr adlanan monstru doğmuşdu. Minotavr Dedalın tikdiyi labirintdə qalırdı və kritlilərə təzminat kimi verilən 13 gəncə, onu öldürməyi qərara alan Tesey də qoşulmuşdu. O, Knossosa gəldikdə Minosun qızı Ariadna ona vurulmuşdu və faktiki olaraq sap kələfi vasitəsilə labirintdən çıxmağına səbəb olmuşdu. Labirintdə Tesey Minotavrın buynuzlarından tutub onun bədəninə qılıncını soxmuşdu.

Kompleksdəki tac otağı, mərkəzi həyət və böyük pilləkən diqqəti xüsusilə cəlb edir. Tac otağında çar taxtı yerləşir, otaqların hamısını qazları, delfinləri, zanbaqları təsvir edən freskalar bəzəyir. Knossos sarayını Kiçik Sarayla birləşdirən daş döşənmiş Çar yolu vardır. Mərkəzi həyət sarayın nüvəsi olmaqla, onun otaqlarını işıq və hava ilə təmin edir. Burada anbarlar vardır. Dini mərasimlər Mərkəzi həyətdə və Qərb həyətində keçirilirdi. Mərkəzi həyətdə üçmərtəbəli kilsə binası var imiş.



Knossos sarayı. Tac otağı

Dəhlizlər sütunların üzərində ucalır. Çariça zalının giriş qapısının üstündə dəniz sularında üzən delfinlər təsvir olunur.

Kiçik sarayda çox qiymətli öküz başı vardır, o, qab rolunu oynayırdı, buynuzları qızıl suyuna çəkilmiş ağac materialındandır. Kaşıdan olan bir heykəldə məmələrini əmən balası ilə birlikdə vəhşi ana keçi təsvir olunurdu. Əllərində ilan tutan ilahələrin kiçik heykəlləri də kaşıdan düzəldilmişdir. Freskalarda müxtəlif formadakı çox incə belli qızlar təsvir olunur.



Knossos sarayı. Öküz başı

Məşhur Minoy ledisi «La Parisienne» – “Parisli qadın” kimi tanınır. Bu freskada qadının qara saçlarını, iri gözlərini, uzun boynunu və albalı rəngindəki dolu dodaqlarını görən fransız turisti təəccübünü gizlədə bilməyərək, onun Parisdə öz qonşuluğunda yaşayan qız olduğunu demişdi. Digər bir freskada isə öküzün üstündən tullanmaq təsvir olunur. Biri öküzün buynuzlarından tutmuş, digəri

arxasında dayanmış, akrobat isə onun üstündən tullanır. Oğlanlar da, qızlar da b.e.ə. XV əsrdə bu riskli idmanda iştirak edirdilər. Digər bir freskada isə mavi rəngdəki quş təsvir olunmuşdur. Quş qayanın üstündə oturmuş, onu zanbaqlar və yabanı qızılgüllər əhatə edir. Ümumiyyətlə, çox sayda divar rəsmlərinin qalıqları bizim dövrümüzə gəlib çatmışdır.

Knossos sarayı – “Parisli qız” və “Öküzün üstündən tullanma” freskaları

Bir binaya çox böyük teatr pilləkəni birləşir. Sivilizasiyanın yüksək səviyyəsini rahat vanna otaqları və kanalizasiya sistemi olan tualetlər təsdiq edir. Bunlar b.e.ə. XVII əsrə aid idi, heç 3300 il sonra belə, b.e. XVII əsrində də Avropanın kral saraylarının əksəriyyətində belə rahat şərait yox idi. Deməli, kritlilər Avropanı min illər əvvəl qabaqlamış, ona urbanizasiya və layiqli ev şəraiti yaratmaq dərsini vermişdilər. Buradakı mürəkkəb tikinti arı şanını xatırlatmaqla, otaqlar pəncərələri balkonların və verandaların köməyi ilə işıqlanırdı. Knossosa çoxlu turist gəldiyindən içəri keçməyi cırcıramaların qayğısız şərqisi altında xeyli gözləməli olursan.

Müasir Kritin mənzərəsi

Müasir Krit evlərinin həyəti yaşıllıqlara bürünmüşdür, burada çiçək açmış günəbaxandan dekorativ bitki kimi istifadə olunur. Van Qoq öz seriya tablolarında günəbaxan çiçəyinin günəş enerjisinin simvolu kimi sirrli cazibədarlığını açıb göstərmişdi, kritlilər isə bu çiçəyin digər güllərdən geri qalmadığı qənaətinə gələrək, onu bəzək simvolu kimi evlərinin həyətlərinə köçürmüşlər. Bəzi

həyətlərdə, ofis binalarında bizim yuxarı dırmaşan qızılgüllərimiz kimi iri kol şəklində olan buqenvilli çox sayda qırmızı gülləri ilə olduqca xoş mənzərə yaradır.

Qədim irslə tanışlıq çox şey versə də, müasir həyatı ifadə edən ayı-ayrı cəhətlərə də diqqət yeitirirdik. Bizi Heraklion şəhəri yaxınlığındakı «Arxenas» üzümçülük kooperativinə dəvət etdilər. Orada biz süfrə üzümünün xaricə ixrac edilməsi üçün qablaşdırıcı fabrikin işi ilə tanış olduq. Bu böyük fabriki israillilər tikmişlər və qablaşdırıcı fəhlə qadınların işini konveyerlər nisbətən yüngülləşdirir. Lap yuxarıdakı xətlə yeşiklər, ortadakı xətt ilə üzüm salxımları verilir, aşağıdakı xətlə isə tullantılar daşınır. Qadınlar salxımları götürüb əllərindəki qayçı ilə yararsız gilələri, həm də salxıma yaxşı görünüş vermək üçün bəzi kiçik hissələrini kəsib tullantı kimi atır, sonra kosmetik əməliyyat aparılmış salxımlır yeşiyə yığılır. Kooperativ İngiltərə və Almaniya Federativ Respublikasına süfrə üzümü göndərirdi. İngilislər şəkərliliyi 9°, almanlar isə 12° olan üzümü xoşlayırlar, bundan yuxarı olduqda alıcı firmalar kooperativi cərimələyir. Ona görə də qablaşdıranlar üzümün yetişkənliyinə də xüsusi diqqət verirlər. Tullantılar isə toplanıb, emal üçün şərab zavoduna göndərilir.

Yeşiklər də çox yüngüldür və yalnız altlıqları taxta materialındandır, yan tərəfləri isə kartondandır. Taranı isə kooperativ Rumıniyadan alırdı. Sonra bizi şərab zavodunun hazır məhsul saxlanılan anbarlarına apardılar. Yer səthindəki birinci mərtəbədə yenicə emal edilən şərablar saxlanır. Burada daxili temperatur 18°C-dən aşağı olmur. Aşağıdakı ikinci mərtəbədə 3-4 ilin istehsalı olan şərab saxlanır. Burada isə temperatur iki dərəcə aşağı olur. Lap aşağıdakı üçüncü mərtəbədə isə havanın temperaturu daim 14°C səviyyəsində saxlanır. Buradakı çəlləklərdə yaşı 20 il olan şərablar saxlanır. İri bir çəlləyin ağzı açıldıqda otağa gözəl qoxu yayıldı. Uzun qulpu olan xırda kəfgirlə şərabı çıxarıb, qədəhlərə süzdülər. Şərab bizdəki bəhməz kimi qatı idi, bizə dequstasiya etməyi təklif etdilər. Şərabın dadı, buketi və ətri heyrətamiz idi. Yunanlar şərabçılıqda çox qədim xalq olsalar da, fransız, italyan və ispan şərabları ilə dünya bazarında rəqabətə girə bilməzlər. Lakin biz bir daha yəqinlik tapdıq kir, yunanlar yüksək keyfiyyətli şərab məhsulu hazırlamaqları ilə də öyünə bilərlər.

Krit adası turist axınına xidmət göstərmək üçün çox geniş restoranlar şəbəkəsi düzəltmişdir. Xanya şəhərindəki dəniz kənarındakı kilometrlərlə ölçülən məsafə açıq havadakı restoranlarla doludur, birinin axırıncı stolunun yanında digər restoranın birinci stolu yerləşir. Belə zəncirvari şəbəkə turistlərə rahatlıq yaradır. Xörəklərdən əcnəbi qonağın baş çıxarması üçün iri şüşəli şkaflarda çox növdə olan xörəklər düzülür və altındakı vərəqədə isə onun qiyməti yazılır. Balıq xörəyi sifariş verdikdə müştərini mətbəxə dəvət edir və onun seçiminə müvafiq təzə balıqdan xörək hazırlanır. Bəzi müştərilər öz hobbiləri ilə məşğul olmağa da imkan tapırlar, oturduqları restorana məxsus stuldan suya spinninq sallayıb balıq tuturlar.

Xanya şəhərinin görünüşü

Real və saxta qədimliyin fərqi

Krit adasının qədim tarixinə hamı böyük hörmətlə yanaşır, çünki onu arxeoloji qazıntılar və elmi tədqiqatlar bütünlüklə təsdiq edir. Kritin və ya Yunanıstanın bu tarixi saxtalaşdırmaq yolu ilə daha uzağa aparmaq istəkləri və cəhdləri də yoxdur. Öz təsdiqini bütünlüklə tapan qədimliyə nəsə əlavə etməyə də ehtiyac yoxdur. Bəzi xalqlar isə əslində, irqçiliyə meyil edərək öz tarixlərini saxtalaşdırmaq, onun o qədər də qoca olmayan sifətinə minilliklərin naxışlarını vurmaq üçün dəridən-qabıqdan çıxırlar. Özlərində inanılası bir şey tapmayanda qədim dünyanın xalqları və dövlətləri ilə bir dövrdə yaşadıqlarını, təmasda olduqlarını uydurular. Ermənistanda qatı millətçiliyi ilə tanınan qadın şair Silva Kaputikyan ermənilərin guya qədim xalq olduğunu Assuriyanın köməyi ilə işə vermək yolunu tutaraq, öz şeirində saxta bir rəvayət uydurmuşdur. Guya Assuriya çariçası Şammuramat (Semiramida) erməni oğlana vurulmuş, onu ələ keçirmək üçün hər cür vasitəyə əl atmışdı. Şairənin məqsədi belə saxta yolla ermənilərin b.e.ə. IX əsrin sonunda yaşadıqlarını şüurlara təlqin etməkdir. Az-çox tarixi öyrənənlər belə uydurmaya inanmır, bu cür rəvayət isə yalnız qatı millətçilik virusu ilə sirayətlənmiş xəstə beyinlər tərəfindən sevinclə qəbul edilə bilər.

Saxta tarix binası, adətən, sakinsiz olur, kimsə orada yaşamaq həvəsinə düşürsə, mağarada yaşayan canlılar kimi korluqları ilə seçilirlər.

Kritlilər yaxın keçmişə də aid olanları yaddaşlardan silməkdən uzaqdırlar. Bir dəfə yol kənarında burnu göyə dikilən ağ metaldan təyyarə heykəli gördük. Almanlar İkinci Dünya müharibəsində ingilislərlə ada uğrunda vuruşanda, onların aviasiyası xüsusilə fərqlənmişdi və öz hərbi pilotlarına belə heykəl qoymuşdular. Kritlilər heykəli uçurmamış, müharibədəki bədbəxtliklərinin rəmzi kimi saxlanmasına qərar vermişdilər.

Adaya səfərimiz başa çatanda axşam Moskvadan, İttifaq Nazirliyi ilə işgüzar əlaqələrinə görə yaxşı tanıdığım Pavlik Panoyatadis Afinadan uçub, bizi görmək üçün Xanyaya gəlmişdi. Bizim burada olduğumuzu isə İttifaq nazirliyinin işçiləri ona çatdırıbmış. O, bizi gecə klubuna dəvət etdi. Əlbəttə, bu, Parisdəki məşhur və

iki il əvvəl yüksək sənətindən həzz aldığım Lido deyildi, xırda bir obyekt idi. Klubda Lidodan fərqli olaraq şam yeməyi verilmirdi. Süfrəyə yalnız çərəz v içkilər təklif olunurdu. Lakin maraqlı proqramı və fərqli cəhətləri var idi. 16 qadın və kişi müğənni bir-birini əvəz edərək, nisbətən aşağıda yerləsən kiçik səhnədə gözəl yunan mahnılarını oxuyurdular. Qadın müğənnilərdən kimisə məclisinə dəvət edə bilərsən, dostumuz bir gözəl ifaçını bizim stola dəvət etdi. Qadın 6 dildə söhbət aparmağa hazır olduğunu bildirdi, biz isə tərcüməçinin xidmətinə üstünlük verdik. Qonağımız özünü çox nəzakətli aparırdı, içki qədəhini dodaqlarına vurub, yerə qoyurdu.

Digər bir qayda isə sifariş verib yüzə qədər boşqabı müğənnilərin ayaqları altına atıb, sındırmaq idi. Dostumuz da iri sifariş verdi, biz nəzərdə tutulan əməliyyatdan imtina etdikdə, ofisiant boşqabları atıb sındırmaqla məşğul oldu.

Başqa bir qəribə qayda isə bir butulka fransız şampanını sifariş verib, iki qədəhi doldurub birinin müğənniyə təklif edilməsi, digərinin isə sifariş verənin içməsi idi. Butulkadakı şərabın qalan hissəsi isə müğənninin ayaqları altına, səhnədəki ağac kəpəyinin üstünə tökülürdü.

Musiqi təranələri və yunanların gözəl vokalı bizi çox valeh etdiyindən, bir neçə saatı orada keçirdik, sonra otelə qayıtdıq, səhər tezdən Afinaya uçmalı idik.

Afinada bir gün qaldıqdan sonra Kerkira adasına uçduq.

«Cənnət» adlanan Kerkiya adası

İon dənizi adaları içərisində turizmin mühüm mərkəzi Kerkiradır (onu ingilislər Korfu adlandırırlar), bu eyni adlı adanın həm də baş şəhəridir. Tipik Aralıq dənizi təbiətinin gözəlliyinə görə çox vaxt onu «cənnət» adlandırırlar. Adada olarkən belə adın hiperbola olmadığına yəqinlik tapdıq.

Kerkira ölkənin şimalında, İon dənizində yerləşən adadır, ora təyyarə ilə səfər bir qədər çox çəkməli idi. Böyük yunan bəstəkarı Mikis Teodorakisin radio ilə verilən mahnılarının sədaları altında yenə də «A-300» aerobusunda oraya uçduq və müasir, böyük təyyarə limanında bizi zeytunçuluq elmi-tədqiqat institutunun direktoru bir neçə əməkdaşı ilə bilikdə salamladı. Kiçik plyajın yanındakı «Marina» otelində yaşamalı idik. Otel yaxşı təsir bağışlaydı, sakit bir guşədə yerləşirdi, otaqlarının döşəməsi isə ağ mərmərdən idi. Yunanıstan təbii sərvətlərdən nə qədər kasad olsa da, mərmər barədə çox varlıdır. Hələ Perikl dövründən heykəllərdə və binaların fasadında yerli mərmərdən istifadə olunmuşdu. Döşəmənin mərmərdən olmasına gəldikdə, bunun yayda otağa sərinlik vermək və kommunal gigiyena xatirinə seçildiyi bildirildi. Otelin qarşısındakı çınqıllı plyajda az adam olurdu və imkan düşəndə biz də İon dənizi sularının əhval-ruhiyyəyə pozitiv təsirini yoxlamaqdan imtina etmirdik.

İnstitutun direktoru səmimi bir ziyalı insan idi, kollektivi də ona hörmətlə yanaşırdı. Elmi işçilər zeytunçuluğun inkişafı və aqrotexnikası məsələləri ilə məşğul olurdular və bağbanlara praktiki köməklik göstərirdilər.

Kerkira adasının gözəlliyi müxtəlif elementləri və çalarları ilə diqqəti cəlb edir. Buraya Avropadan çox sayda turistlər gəlir, xüsusən almanlar orada istirahət etməyi çox sevirlər, onların arasında görkəmli siyasi xadimlər də az deyildi. Möhtəşəm aeroport binası da məhz turist axınına müvafiq olaraq tikilmişdir.

Aeroportun qonşuluğundakı kiçik ada və adadakı miniatür ölçülərdəki ortodoks kilsəsi öz gözəlliyi ilə göz oxşayır.

Kerkira adası osmanlıların əsarəti altında olmamışdı. Rus admiralı F.F.Uşakov (1744–1817-ci illər) Fransaya qarşı 1778–1800-ü illərdə gedən müharibədə donanma ilə Aralıq dənizinə çıxanda Kerkirada olmuş və buradakı qala mühasirə edildikdən sonra, 1799-cu ildə ruslara təslim olmuşdu.

Kerkiralılar kritlilərə nisbətən daha qonaqpərvər və mehribandırlar, institutun direktoru bizi qayğı ilə əhatə etmişdi, adanı geniş şəkildə göstərməklə, bizə sevdirmişdi. Bazar günü o, bizi şəhərin baş meydanındakı çoxmərtəbəli evdə yerləşən mənzilinə qonaq dəvət etdi.

Köhnə mebellər və pianino olan qonaq otağına daxil olarkən qoca bir kişi bizə «xoş gəlmişsiniz!» dedi.

Direktor atası ilə bizi tanış etdi, qonaqlarına hörmət əlaməti kimi Afinada yaşayan atasını da evindəki ehtiram tədbirinəə dəvət etmişdi.

Evin xanımı süfrəyə cürbəcür salatlar, tərəvəz düzmüşdü. Sonra süfrəyə pilav və çilav gətirildi. Xanım izah etdi ki, bu xörəklər türklərdən götürülmüşdür, yəqin etdik ki, bizim plova və çilova bənzəyirlər. Yunanlar türk mətbəxinə hörmətlə yanaşır və əxz etdikləri də az olmamışdır. Dostum Pavlikin anası bizi onun Moskvadakı evində «yalançı dolmaya» qonaq etmişdi. Bu dietik xörəkdə pomidora, bibərə və badımcana ət əvəzinə çox sayda göyərtilər doldurulur. Bu xörəyin də türklərdən götürülməsi ev sahibləri tərəfindən qeyd olundu.

Axşamtərəfi şəhərin baş meydanında gəzərkən burada aparıcı siyasi partiyalardan biri olan PASOK seçkiqabağı mitinq keçirməyə hazırlaşırdı. Çox sayda plastik stullarda əyləşmiş adamları mitinqə qədər məşğul etmək üçün səhnədə A.P.Çexovun «Vanya dayı» pyesinin tamaşasını göstərirdilər. Reaksiyadan görünürdü ki, böyük rus yazıçısının dram əsəri onlara heç də yad deyildir.

İnstitutun kollektivi bizi iki meşəli dağ arasında yerləşən «Tripa» adlı («Deşik» mənasını verir) açıq havadakı restorana dəvət etdi. Süfrəyə hədiyyə kimi «Şirvan» konyakı qoyduq. Lakin yunanlar spirti içkiyə elə də meyilli deyillər. Məclisin sonunda vur-tut 150 qrama yaxın konyak içilmişdi, qonaqların sayı isə 20-dən çox idi.

Yunanlar zeytun yağını çox sevirlər, xörək bişirilməsində kərə yağından istifadə etmirlər. Hətta tərəvəz salatının üstünə çıxana qədər ona yağ tökürlər. Salat yeyilib qurtardıqda kasada qalan yağa çörəyi batırıb iştahayla yeyirlər. Bu məsələdə onlar qurutlu xəngəlin aludəçiləri olan bizim qazaxlıları xatırladırlar. Xəngəl boşqabda deyil, iri porsiya kimi buludda verilir. Qazaxlı son xəngəl yarpağı ilə buluddakı yağı siyirib ləzzətlə onu yeməyə başlayır. Yunanlarla qazaxlıların yağa münasibətində elə bir fərq yoxdur.

Yunan musiqisi olduqca böyük emosional təsir bağışlayır, onda qəmgin, minor melodiyalar üstünlük təşkil edir. Müğənnilərin səs tembri də qüssəni, kədəri ifadə etməyə uyğun gəlir və ifa olunan mahnılar dinləyicini öz təsiri altına ala bilir. Bir müğənninin ifasında eşitdiyim «Tomaxeri» mahnısı mənə çox xoş gəlmişdi. Mahnının «Bıçaq» adı təəccübümə səbəb oldu. Səmimi etiraf edirəm ki, yunan musiqisinin həzinliyi ürəyimin kreşendosunu gücləndirirdi.

Yunanlar qədim Romaya ədəbiyyatı, incəsənəti, teatrı, arxitekturanı, fəlsəfi bilikləri gətirmşdi. Lakin b.e.ə. III əsrdən başlayaraq Romada əxlaq pozğunluğu meyilləri gücləndi və bu məsələdə onlar yunanların mənfi təsirini ön plana çəkirdilər. Romanın görkəmli siyasi xadimi Böyük Katon (b.e.ə. 234–149-cu illər) əxlaqın korlanmasının yunanların təsirinin nəticəsi olduğunu qeyd edərək, Romanın köhnə qaydalarının bərpasını və saxlanılmasını təbliğ edirdi.

Müasir yunanlar əcdadlarının qiymətli irsi ilə fəxr etdikləri halda, qədim dövrlərdə əxlaqa yüngül münasibət bəslənməsi hallarını ənənələr cərgəsindən silib çıxarmışlar. Bu işdə ortodoks dini də pozitiv fəaliyyət göstərir. Avropanın digər ölkələrində əxlaq tabularına əhəmiyyət verilməməsinin əksinə, Yunanıstanda nə intim yaxınlığa xidmətlə əlaqədar malları satan mağazalara və nə də pornoqrafik ədəbiyyata rast gəlinmir.

Roma yunanların elmə, təhsilə münasibətdəki nümunələrindən çox şey götürmüşdü. Yunan qullar varlı ailələrin uşaqlarına evlərdə müəllimlik edir, həkimlik praktikası ilə məşğul olurdular. Yaradıcı insanlar da yunan fəlsəfəsindən, ədəbiyyatından çox şey öyrənirdilər. Qədim Romanın məşhur siyasi xadimi, natiqi və filosofu Mark Tulli Siseron (b.e.ə. 106-43-cü illər) qədim yunan fəlsəfəsinə və siyasət elminə arxalanaraq siyasət, fəlsəfə və ritorika haqqında 19 traktatdan ibarət qiymətli əsərlər yaratmışdı. O, yunan fəlsəfə nəzəriyyəsində ona əhəmiyyətli görünənləri toplayaraq, onlardan geniş istifadə etmişdi. Onun fəlsəfi əsərləri təkcə müasirlərini deyil, Orta əsrlərdəki və Yeni tarixdəki nəsilləri də yunan fəlsəfəsi ilə tanış etmişdi. Platonun əsas fəlsəfi ideyalarının tərəfdarı olmaqla, ən yaxşı qanunvericiliyə malik olan nümnəvi dövlətin mənzərəsini təsvyr edirdi. O,yunan mədəniyyətinin əhəmiyyətinə dərindən əmin olduğundan, təhsil mənasında "humanitas" sözündən istifadə edərək, güman edirdi ki, yalnız təhsilin hesabına insan olmaq olar. Natiqlikdədə də onun üçün nümunə rolunu böyük yunan natiqi Demosfen oynayırdı. O, Antoniyə qarşı mübarizəsində Demosfenin nitqlərini təqlid etmək qaydasında, onun şıxışlarının da adını götürərək, 14 "filippika" yazmışdı.

Romanın təmsilçi şairi Fedr (b.e.ə. 15 – b.e. 70-ci illəri) yunan təmsilinin banisi Ezopun mövzularından istifadə edərək, əxlaqi mövzuda güclü şeirlər yazmışdı. Böyük yunan tarixiçisi Plutarx (b.e. 46-119-cu illər) Romada müəllimlik etmiş, böyük yaradıcılıq irsi qoyub getmişdir. Ayrı-ayrı böyük şəxsiyyətlərin müqayisəli tərcümeyi-hallarını müasir madam Tyüsso muzeyinin eksponatlarının dəqiqliyini andıran bir qaydada yazmışdır.

Kerkiranın mənzərəsi

Kerkirada biz «Axilleon» adlanan saray və bağla tanış olduq. Onlar Avstriya imperatoru Frans İosifə (1830–1916-cı illər) məxsus idi. İmperatorun istirahət sarayının birinci mərtəbəsində onun iş otağı yerləşir. Otaqda yazı stolunun arxasındakı kreslo at yəhəri formasında idi. İmperatorun ayaqlarında qüsur olduğundan yəhər üstündə oturub işləməyi sevirmiş. Saray və bağ imperatorun qədim yunan mifologiyasının pərəstişkarı olan arvadının təşəbbüsü ilə tikilmiş və salınmışdı. Bağ yaşıllığa bürünmüşdür və qədim mifologiya qəhrəmanlarının heykəlləri ilə doludur. Sarayın və bağın adı da xanımın istəyinə müvafiq olaraq Homerin qəhrəmanı Axillesin şərəfinə «Axilleon» adlandırılmışdı. Lakin qadın faciələrdən uzaqlaşa bilməmişdi. Oğlu sevdiyi qıza evlənməyinə atası icazə vermədiyinə görə özünü intihar etmişdi. Qadının özü də Cenevrə gölü ətrafında gəzərkən 1898-ci ildə güllə atəşi ilə qətlə yetirilmişdi.

Kerkirada “Axilleon”sarayı və bağı

Kerkiranın təbiəti dənizin əhatəsi ilə birlikdə özünün «Cənnət» adını bütünlüklə doğruldur. Adadakı təpələr yaşıllığa bürünmüşdür, onların içərisindəki dar yolla avtomobildə hərəkət edərkən gözlərin qarşısında füsunkar mənzərə açılır. Dənizin göz yaşı kimi duru suyunun səthi alt qatdakı yosunların hesabına üç rəngdə – mavi, qara və yaşıl rənglərdə görünür. Fransız şairi Pol Verlen təsvir vasitəçi kimi rəngləri inkar edərək, ona hər şeyi ifadə edən çaları (la nuanse) verməyi xahiş edirdi. Gözlərimiz önündə gözəllik haləsinə bürünmüş rənglərdə isə onlarla çaları müşahidə etmək mümkün idi.

Ölkənin iki adasına səfərdə biz öz düşüncələrimizin real təzahürləri ilə tanış olmaq imkanı əldə etdik və təəssüratlarımız bu ölkənin, onun qədim mədəniyyəti barədə, az-çox bildiklərimizi xeyli möhkəmləndirirdi.

Zeytun yağı istehsalı xəttinin alınması

Biz Afinada olarkən əyalət şəhərində zeytun yağı zavodu üçün avadanlıqları və bütöv xətt istehsal edən zavodun sahibi ilə görüşdük və belə bir xətti almaq barədə məqsədimizi ona çatdırdıq. Biz başqa müəssisələrin satış təkliflərini də gözdən keçirmişdik və sonuncu ilə iş görməyi məqsədəuyğun hesab etmişdik. Çünki onun təklif etdiyi istehsal xəttinin avadanlıqları bizim istəyimizə uyğun idi, ən başlıcası isə başqalarından xeyli ucuz idi. Sövdələşmənin müzakirəsi uzun çəkdi və biz minimum qiymətə belə avadanlıq kompleksini almağa razılıq verdik. Birgə qərara gəldik ki, respublika nazirliyinin mütəxəssisi xətti zavodda qəbul edib, oradan Sovtransavtonun iri yük maşınlarına yükləyib, Bakıya göndərəcəkdir.

Nazirlikdə avadanlığın qəbul edilməsinə kimi göndərmək məsələsi müzakirə edildikdə, hamı «Baş mexanik» idarəsinin rəisi Mübariz Süleymanovun adını çəkdi. Çünki o, 1982–1983-cü illərdə İtaliyadan alınmış iki nar emalı zavodunun avadanlıqlarını Milanda qəbul edib, Sovtransavto maşınları ilə Bakıya göndərmişdi. Zavodların tam avadanlıq kompleksi barədə heç bir çatışmazlıq və ya problem meydana çıxmamışdı. Bu dəfə də həmin mütəxəssisin fərasətli tərpənməsi hesabına, zeytun yağı emalı xətti oktyabr ayının əvvəllərində Zabrat zavoduna gəlib çıxmış və orada montaj-quraşdırma işinə başlanmışdı. Dekabr ayında isə zavodda artıq keyfiyyətli zeytun yağı istehsal edilirdi.

Mərkəzi Komitə bürosunda Birinci katibin verdiyi tapşırıq icra edilmişdi və SSRİ-də ilk dəfə olaraq zeytun yağı stehsalına başlanmışdı. Avadanlıq mütəxəssisləri qane edirdi, ən sevindirici hal isə o idi ki, yağın keyfiyyəti də normal idi və xaricdən alınan yağlarla müqayisədə isə yerli yağın turşuluğu az idi. Lap qədimdən Yunanıstanda yağı göy meyvələrdən alırdılar. Abşeronda da zeytun yetişənə yaxın yığım başlayır və bir ay ərzində başa çatırdı.

Səfər başa çatır

Nəhayət, Yunanıstanla vidalaşma anı gəlib çatdı. Afinadan Moskvaya uçan təyyarənin I klassında görülən işin nəticəsi qarşısında səfər yorğunluğu yaddan çıxmışdı. Bir saata yaxın uçuşdan sonra təyyarə marşruta uyğun olaraq Bolqarıstanın paytaxtı Sofiya aeroportuna endi. Sərnişin çox olduğundan Sofiyada biletlər hamısı satılmışdı və ikinci klassdan birinciyə adamlar keçirirdilər. Mən stüardessadan iki səfər yoldaşımı – Moskva konserv sənayesi elmi-tədqiqat institutunun direktor müavini olan professorunu və Zabrat müəssisəsinin mühəndisini yanıma gətirməyi xahiş etdim və onlar artıq I klassda uçurdular. Professor onları pis qidalandırdıqlarından şikayətləndi və məndən xahiş etdi ki, ona xörək və içki sifariş verim. Stüardessa ət xörəyi və bir iri qədəh konyak gətirdi. Moskvalı göz qırpımında konyakı içib, mümkünsə yenə sifariş verməyimi yalvardı. Stüardessa yenə bir dolu konyak qədəhi gətirdi və professor qədəhi boşaltdı. Mən özümü saxlaya bilməyib onun qarınqululuğuna gülürdüm. Bu vaxt təyyarə ekipajı kapitanının öz səsi ilə elanı eşidildi: «Kəsici və deşici alətlərinizi təhlükəsiz yerə qoyun. Kəmərləri bağlayın». Salona sakitlik çökdü, stüardessalar da yoxa çıxdılar.

Bir qədər sonra kapitanın yeni elanını eşitdik, təyyarə Moskvaya uçmur, Odessada yerə enəcəkdir. Biz müəmmalar aləmində idik, birinci elan nəyə görə edilmşdi, həm də uçuş marşrutu niyə pozulmuşdur, nəyə görə Moskvaya birbaşa uçmaqdan imtina edilir? Nəhayət, Odessa üzərinə çatdıq, şəhər və dəniz üstündə dövrə vuran təyyarə iki cəhddə yerə enə bilmədi. Bizimlə uçan Bolqarıstan xarici işlər nazirinin müavini öz rəyini bildirdi ki, yəqin şassilər açılmır. Avqust günəşi altında, mən təyyarənin yerdəki kölgəsinə baxdıqda şassilərin sallandığını gördüm.

Salonda tam sakitlik idi, deyəsən, hamı taleyin verdikti ilə razılaşmışdı. Heç bir panika nişanəsi, hay-küy yox idi. Ölümün gəlişi hamını sakitliyə cəlb etmişdi. Gözlərimin qarşısında anam canlandı, o, məni məzəmmət edirdi ki, «Niyə bu səfərə yollandın? Başqası gedə bilməzdimi?» Mən ona cavab verməyə də çətinlik çəkirdim. Təyyarə üçüncü cəhddə yerə enəndə onlarla təcili tibb maşınını və yanğınsöndürənlərin sürətlə borta yaxınlaşdığını gördüm. Aeroport binasının uçuş meydanı tərəfdəki balkonunda yüzlərlə adam bizim təyyarəyə tamaşa edirdi. Pilləkənlər verildi və biz ləngimədən aşağı endik. Sərhədçilərin əhatəsində qızmar günəşin altında bir meydançada dayanmışdıq. Mən deputat olduğumu qeyd edib, sərhədçidən aeroport məmurunu dəvət etməsini xahiş etdim. Aeroport işçisi gəldi və bizi sərin bir otağa apardı, bolqar nazir müavinini də özümüzlə götürdük. Restorandan ofisiant çağırtdırıb sərin su, dondurma və kofe sifariş verdik, onlar əhval-ruhiyyəmizi bir qədər yaxşılaşdırdı.

Nəhayət, axşam bizə əlavə bort verildi və gecə yarısı Moskvaya çatdıq. Məni nazirliyin beynəlxalq əlaqələr şöbəsinin işçisi, dostum V.V.Jilinski qarşılayırdı. O, boynuma sarıldı və hönkür-hönkür ağladı. Mən heç nə başa düşmürdüm. Şeremetyevo beynəlxalq aeroportu DTK (KQB) şöbəsinin rəisi onun tələbə yoldaşı idi, bir dəfə məni də onunla tanış etmişdi. Onlar görüşəndə kimi qarşıladığını soruşduqda, mənim adımı və Afinadan uçduğumu dedikdə, dostu başsağlığı

verirmiş kimi ona deyibmiş ki, təyyarə havada partlayacaqdır, salona bomba qoymuşlar və bizim bu barədə məlumatımız vardır. Yarım saat sonra o, Jilinskiyə xoş xəbər çatdırıb ki, heç nə baş verməmişdir və təyyarə Odessaya enmişdir.

Nazirliyin işçisi uzun müddət bizə gözləməli olmuşdu və Hollandiyadan qayıdan Estoniya naziri ilə də görüşüb əhvalatı ona danışıbmış. Eston kolleqam da mütəəssir olmuş, bir butulka konyak və bir butulka şampan alıb, Jiliinskiyə veribmiş ki, sağ qalmağını qeyd edərsiniz. Valentin ayrıca otaq və ofisiantlar saxlatdırmışdı. Gecəyarısı aeroportda mən əsəbi gərginlikdən çox yorğun idim və otelə getməyə tələsirdim. Lakin Jilinski təkid etdi və yemək sifariş verildi. Professorla birlikdə o, hər iki butulkanın öhdəsindən gəldi.

Biz bir müddət həyatla ölüm arasında mövcud olmuşduq. Lakin bu vaxt öz təcrübəmə müvafiq olaraq deyə bilərəm ki, bu vaxt heç bir ruh aqoniyası baş vermir, həyat barədəki son hökmlə razılaşmalı olursan.

Çatan kimi oteldən Bakıya, evə zəng vurdum, hal-əhval tutduqdan sonra anamı oyatmağı, telefona çağırmağı xahiş etdim. Anam yuxulu-yuxulu danışırdı, nə baş verdiyindən xəbəri olmasa da, səsindəki məzəmmət notları açıq hiss olunurdu.

Zeytun yağı zavodunun avadanlığının alınması bizə həyatımız hesabına başa gələ bilərdi. Adi bir lələk dəvənin belini qıra bilərdi, lakin xoşbəxtlikdən, həmin lələk yükə çevrilə bilmədi və bizim həyatımız xilas oldu.

Yağ istehsalı barədəki yenilik böyük hay-küyə səbəb oldu və yeni zavod kompleksinin tikintisi zərurəti meydana gəldi. Zeytun yağı istehsalı köhnə primitiv Zabrat Konsert Zavodunun yeni binaya köçməsinə və müəssisənin tam rekonstruksiyaya məruz qalmasına səbəb oldu.

II FƏSİL

Qədim yunanlar. Qədim Yunanıstanın tarixi mənzərəsi barədə əlavə düşüncələr

Yunanıstanın təbiəti nə qədər gözəl, insanları nə qədər mehriban olsa da, tanış olduğun mənzərələr olduqca yaxşı təəssüratlar yaratsa da, onun zəngin keçmişi buraya gələnləri maqnit kimi özünə daha çox cəlb edir və adam qədim tarixin ecazkar cazibədarlığını tərk etmək istəmir. Həm də bu tarixi daha yaxşı öyrənmək ehtiyacı yaranır. Qədim Yunanıstan, orada baş verən hadisələr, bəşəriyyətə töhfə verdiyi görkəmli şəxsiyyətlər, elm, siyasət və hərb sahəsində parlaqlığı azalmayan dühaların fəaliyyəti okean sularının dərinliyini andırır. Həmin suları tədqiq edən çox şeylə qarşılaşmaq imkanı qazanır, qarşısına çıxan yeni nə varsa, hökmən tədqiqatçının maraq və təəccüb dairəsinə daxil olur.

Qədim Yunanıstan haqlı olaraq Avropa sivilizasiyasının beşiyi adlanır. Düzdür, o, Mesopotamiyadakı, Misirdəki, həmçinin İnd çayı vadisindəki Harappa adlanan sivilizasiyalardan sonra yaransa da, bəşəriyyətin inkişafına onunla müqayisədə heç bir ölkə və ya xalq belə geniş miqyaslı fayda verməmişdir.

Heroqlifdən fərqli yazı Şumerdə, nisbətən mükəmməl əlifba Finikiyada yaransa da, yunanlar finikiyalıların yazısını götürüb özünə uyğun qaydada sistemləşdirmiş, sonra onu qədim Roma vasitəsilə Avropaya ötürmüşdü.

Yunanıstanda ilk klassik şəhərsalma praktikası ənənəsi meydana gəlmişdir və yunanlar çox sayda məbədlər, xüsusən Parfenonun timsalında simmetriyanın və proporsionallığın sadə, lakin gözəl modelini yaratmışdılar.

Afina dünyaya bu gün də totalitarizmə və avtoritarizmə möhkəm mühafizə səddi çəkən siyasi sistem kimi demokratiyanı kəşf edib, minillər sonra bu nou-hausunu dünyaya ötürmüşdü. İslahatçı qanunvericilər Solon və Klisfen, praktiki fəaliyyəti ilə demokratiyanın inkişafında çox şeyə nail olan Perikl xalq hakimiyyətinin eybəcər siyasi quruluşlardan tam fərqli olduğunu göstərməklə, Böyük Aleksandrın Farosundan çox-çox əvvəl yaratdığı mayakla müqayisədə daha faydalı və gur olan dövlət sistemi işığını yandırmışdılar.

Afinada bir-birindən fərqli olan fəlsəfə məktəbləri yaranmışdı. Sokrat, Platon və Aristotel bu elmin baniləri səviyyəsinə yüksəlmiş. Renessansdan sonrakı və XIX əsr Avropasında təbiətin, cəmiyyətin və idrakın inkişafının ümumi qanunauyğunluqlarının öyrənilməsinə böyük təkan vermişdilər.

Həm də yunan dahilərinin əsərləri sayəsində tarix özü də elmə çevrilmişdir. Herodotun, Fukididin, Ksenofontun tarixi tədqiqatları məlum dünyanı dərk etməkdə əsl köməkçi vasitə rolunu oynamışdır. Qədim Roma tarixçiləri Salyusti, Livi, Tatsit öz sələflərinin yolu ilə gedərək, reallığı ifadə etməyə daha çox meyl etmişdilər.

Yunanlar dünyada ədəbiyyatın meydana çıxmasında da təkrarolunmaz xidmət göstərmişlər. Hələ b.e.ə. VIII əsrdə Homer özünün ölməz əsərləri olan «İliada» və «Odisseya»nı yazmaqla nəinki gözəl poeziya nümunəsi və ilk epik poemalar yaratmış, həmçinin yunan tarixinin bəzi mühüm səhifələrini işıqlandırmağa nail olmuşdu. Beş əsr əvvəl baş vermiş hadisələr nəql edilsə də, Homer həm də yarımmifik, yarımtarixi şəxsiyyətlər qalereyasını yaratmışdır və ondan az qala min il sonra yazıb-yaradan yunan tarixçisi Plutarx özünün yaratdığı dahi şəxsiyyətlər sərgisində ulu əcdadının modellərindən geniş istifadə etmişdir.



Homerin büstü

Elmin digər sahələri də yaradılmaqla, cəmiyyətin intellektual inkişafına və xurafatdan azad olunmasına xeyli köməklik göstərilmişdi. Hippokrat tibb elminin banisi olmaqla, mifik əcdadı Asklepinin işini davam etdirmişdi. Bizim eranın əvvəllərində isə Qalen insan orqanizminin öyrənilməsi sahəsində sanballı iş görmüşdü. B.e.ə. III əsrdə Sirakuzada yaşayan böyük yunan alimi Arximed fizika elminin inkişafı və praktiki tətbiqi üçün müqayisə olunmaz bir fəaliyyət göstərmişdi, matematikanın təbiətşünaslıqda və texnikada istifadə edilməsinin real nümunələrini göstərmişdi.

Arximedin portreti

Yunan elmi quru yerdə yaranmamışdı, münbit torpaq timsalındakı qədim yunan mifologiyası əsasında boy atmışdı. Mifologiyadakı Olimpiya allahları öz ehtirasları, əməlləri, mərhəmətləri və qəddarlıqları ilə heç də bəşər övladlarından fərqlənmirlər, geri qalmırlar. Mifologiya insanlara odu bəxş etdiyinə görə allahlar tərəfindən cəzalandırılan Prometeyi, əllaməliklərinə görə ağır əzablara düçar edilmiş Tantalı və Sizifi, monstr olan ögey qardaşını öldürməyə gəlmiş Teseyə sevgisinə görə kömək edən Ariadnanı, eyni qaydada sevdiyi Yasona kömək etmək üçün atasına qarşı çıxan Medeyanı, məhəbbəti yolunda qurban gedən Adonisi, eşqinin bolluğundan hər şeyə əl atan, buna görə hətta öküz və ya qu quşu qiyafəsinə girən Zevsi, gözəlliyinin layiqli qiymətini almadığına görə ehtirasına boyun əyərək ərinə xəyanət edən Afroditanı, on iki təhlükəli igidlik göstərən, çoxbaşlı Lerney gidrasını, yer altında yaşayan ikibaşlı cəhənnəm köpəyi Tserberi, həmçinin adamyeyən quşları məhv edən Heraklı vermişdir.



Heraklın, Zevsin və Afroditanın (Venera Miloslunun) təsvirləri

Qədim yunan mifologiyası həyat haqqında, xeyir və şər haqqında çoxşaxəli, hər fəsli bir-birindən maraqlı olan nəhəng bir epopeyadır. Bu mənada təsvir olunan hər bir hadisə, maraqlı şəxsiyyətlər dünyası, istər bu allah olsun ya da bəşər övladı olsun, olduqca ibrətamiz xarakter daşıyır. Ona görə də görkəmli yunan dramaturqları Esxil və Sofokl bu miflər əsasında özlərinin ölməz əsərlərini yaratmışlar. Məhz bu əsərləri tamaşaya qoymaqla antik teatr daha yüksək zirvəyə qalxmışdır və indi də ən uğurlu tamaşanı məhz onun səhnə möcüzəsi ilə müqayisə edirlər. 1980-ci illərin əvvəllərində Tbilisinin K.A.Marjanaşvili adına Dram Teatrı Sofoklun «Çar Edin» pyesini tamaşaya qoymuşdu və teatr Bakıda qastrolda olanda bu dahiyanə quruluşa və aktyorların ecazkar oyununa mən də baxmışdım. Sonralar teatr Afinaya yollanmış və həmin tamaşanı göstərmişdi. Yunan teatrşünasları gürcülərin «Çar Edip» tamaşasının emosional əlçatmazlığını özlərinin antik teatrlarının yaradıcılığı ilə müqayisə etmişdilər.

Miflər digər xalqların folkloruna daxil olan nağıllardan özünün intellektual səviyyəsinə görə tamamilə fərqlənir. Bəzi miflərdəki təsvirlər min illəri qabaqlayır.

Nağıllardakı bayağılıq, ucuz şişirtmələr, fantastikaya meyillilik və uğursuz allyuziyalar qədim yunan miflərinə, demək olar ki, yaddır.

Qədim romalılar intellektə aid olan məsələlərdə yunanlardan çox şeyi əxz etmişdilər, yunan mifologiyasını bütünlüklə götürüb özününküləşdirmişdilər. Təkcə miflərin personajlarının adını dəyişdirib, öz dillərinə uyğunlaşdırmışdılar. Zevs Yupiterə, Ares Marsa, Afrodita Veneraya, Poseydon Neptuna, Gera Yunonaya və ç. çevrilmişdi. Romalılar Romul və Remin uşaqlığı və xilas olmaları barədəki əfsanələrini çar Edipin ilkin taleyinə oxşatmışdılar.

Qədim yunan mifologiyası öz geniş və dərin mənalı mövzularına, personajlarının dolğunluğuna görə hətta Bibliyadakı hadisələri də müəyyən mənada kölgədə qoya bilir. Bibliya yalnız iudaizmin və xristianlığın ali dini kitabı olduğuna görə daha geniş yayılmışdır. Özünə belə bir ideologiya yaradan yunanlar heç də bilmirdi ki, onların mifləri min illər boyu bəşəriyyətin faydalandığı bir nümunələr xəzinəsi olacaqdır və onun qəhrəmanlarının ləyaqəti və qəzəbi, hədd tanımayan coşqun hissləri heç də zamana da təslim olmayacaq, öz bəşəri əhəmiyyətini itirməyəcəkdir. Müasir insan qarşısına çıxan çətinliklərdən və böhranlardan baş çıxarmaq üçün bu incilərin müdrikliyinə müraciət edir.

Yunan sivilizasiyası özünün davamı kimi, daha geniş məkanda ellinizmi yaratdı. Yunanlar əvvəllər də birləşməyə meyil etsələr də, yaratdıqları liqaların ömrü heç də uzun çəkmirdi. Ellinizmin ilk rüşeymləri Makedoniya çarı II Filippin dövründə yarandı, lakin onun o vaxtkı məlum dünyada təşəkkül tapması isə Böyük Aleksandrın adı və fəaliyyəti ilə sıx bağlıdır. O, öz dövrü üçün inqilabi bir iş görürdü, Qərblə Şərqi birləşdirmək istəyirdi. Bu cəhd məhz öz ifadəsini Ellinizmin yaranmasında tapdı. Yunan sivilizasiyası və mədəniyyəti böyük sərkərdənin işğal etdiyi ərazilərə nüfuz etdi, yayıldı. Avropadan başqa qitələrə ayaq açan bu sivilizasiya Asiyanı və Afrikanı öz doğma sayıla biləcək məkanına çevirdi. Baxmayaraq ki, Misir sivilizasiyası yunanlarınkından qədim idi və hətta misirlilər yunanları tarixi bilməyən və ondan öyrənməyən bir uşaq olduğunu istehza qaydasında qeyd edirdilər. Lakin həmin dövrdə daha yüksək səviyyədə olan yunan mədəniyyəti Misirdə də kök atmaqla başladı.

Ellinizm üç əsr öz gücünü göstərdi v yayılmaqda davam etdi. Roma imperiyası Yunanıstanı və digər ellinist dövlətləri işğal etdikdən sonra heç də bu fövqəl ideya bütünlüklə yoxa çıxmadı, hələ uzun müddət qızarmış metal istisini davam etdirən kimi öz təsirini saxladı. Hətta qalib xalq məğlub olanın daha yüksək mədəniyyətini əxz etmək, ondan çox şey götürmək məcburiyyətində qaldı. Axı daha dolu qabdan başqasına nəyisə tökmək mümkün olur. Tarixdə bel hallar sonralar da baş vermişdir. Osmanlılar ərəb ölkələrini işğal etdikləri, öz imperiyalarına qatdıqları halda türklər daha yüksək ərəb mədəniyyətindən faydlandılar.

Qədim yunanlar siyasi sistemi əsaslı metamorfozaya uğratmağın da ustaları idilər və onların bu bacarığından inqilabi hal xarakteri daşıyan demokratiya meydana gəlmişdi. İlk dəfə olaraq dövlət azlığın deyil, çoxluğun iradəsinə əsaslanaraq idarə olunurdu. Solon ya Perikl nə qədər böyük islahatçı olsalar da, əlbəttə, onların xidmətlərini inkar etmək və azaltmaq ədalətsizlik olardı,

demokratiyanın təşəkkülünə və yaşamasına məhz afinalıların azad, müstəqil ruhu və təbiəti şərait yaratmışdı. Əgər xalqın şüuruna, idrakına, həyat tərzinə bu islahatlar uyğun olmasaydı, yəqin ki, digər uğursuz olanların taleyini yaşamaqla, hələ uşaq vaxtı qəbirə gömülər, əvvəlkilərin və sonrakıların dəfn edildiyi ən böyük qəbiristanlıqda uyuyardı. Hera Heraklın gələcəyindən qorxduğundan onun beşiyinə ilan salmışdı, igid uşaq isə əlləri ilə ilanı boğub öldürmüşdü. Demokratiyanı da zəhərləmək, öldürmək cəhdləri çox olmuşdu, bu xalq hakimiyyəti bəzən başqa xalqlar üçün tarixi və kütləvi qatil rolunu oynayanlar tərəfindən məhvə sürüklənmişdi, lakin əfsanəvi feniks quşu küldən canlanıb həyata qayıtdığı kimi, yenidən aparıcı mövqeyə çıxmışdı. Hitlerin eybəcər faşizmindən, yaponların militarizm qallusinasiysından sonra demokratik inkişaf yoluna qayıdan Almaniya və Yaponiya buna bariz misal ola bilərlər..

Qədim Yunanıstan, mədəni cəhətdən onun bir hissəsi sayılan Makedoniya tarixə hərb dühalarını da bəxş etmişdir. Sonuncunun çarı II Filipp bir siyasət növü kimi müharibəni diplomatiya ilə birləşdirməyi bacarırdı. Aleksandr Makedoniyalının 12 il dalbadal qələbələrlə müşayiət olunan, ağır döyüşlərdə üzə çıxan hərb dühası isə tarixdə özünə bərabər olan bir nümunəni tanımır. Yuli Sezar da böyük qələbələr çalmışdı. Lakin o, əsasən, dövlətçilik təcrübəsi və ondan irəli gələn üstünlüklərə malik olmayan barbar xalqlarla vuruşmuşdu. Aleksandr isə nəhəng və qüdrətli Persiya imperiyasını darmadağın etmişdi. O, həmin vaxtın məlum dünyasının sonuna çatmaq istəyirdi. Ordusunun Hindistanda artıq irəli getməkdən imtina etməsi, bu qeyri-adi məqsədin həyata keçirilməsinə imkan verməmişdi. Həyatdan çox cavan yaşında gedən Böyük Aleksandrın qələbələri saya gəlməsə də, məğlubiyyətlə bir dəfə də olsun, üzləşməmişdi. O, döyüşlərdə sayca özündən xeyli çox canlı qüvvəyə malik olan düşmən orduları üzərində daim qələbə çalmışdı. Onun ən böyük və daha nəhəng təsirə malik olan qələbəsini isə Ellinizmi həyata gətirməyini və sağlığında bu cərəyanın yeniyetməliyə qədəm qoymasını hesab etmək olar.

Ellinizm o vaxtkı dünyanın sifətini dəyişdirmiş, ona yunan sivilizasiyasına xas olan mədəniyyətin çalarlarını vermişdi. Ellinizm həm də tarixi hadisə kimi iqtisadiyyatda, sosial münasibətlərdə, dövlətçilikdə və mədəniyyətdə yunan və Şərq elementlərini ifadə edirdi.

Ellinizm Qərbi Şərqlə üz-üzə qoymaq siyasətindən, düşmənçilikdən əl çəkmək yolu ilə onları birləşdirmək, imperiya adlanan vahid bədənə çevirmək məqsədini güdürdü. Lakin Aleksandrın ölümü ilə imperiyanın da ömrünə son qoyuldu və parçalanaraq, qurama yorğana xas olan hissələrə bölündü. XIX əsrdə kraliça Viktoriya da Britaniya imperiyasını Qərblə Şərqin sintezinə çevirmək istəsə də, müstəmləkəçilikdən başqa bir nəticəyə nail olmadı, asılı xalqların müqavimət hissləri gücləndi və Britaniya imperiyasının müstəmləkələri çox sayda müstəqil dövlətlərə çevrildilər.

Ona görə də yazının müəllifində Yunanıstanın keçmişinə ötəri nəzər salmaq və bunu qısa icmal şəklində ifadə etmək istəyi yarandı. Maraqlanan oxucu bu ölkənin tarixi barədə müəyyən məlumat əldə edə bilər. Taleyüklü hadisələr və dahi şəxsiyyətlər bu tarixi çox sayda qəribəliyi ilə seçilən naxışlarla bəzəmişdir. Onlarla

yaxından tanışlıq isə bəşəriyyət qarşısında qədim yunanların böyük xidmətlərini layiqincə qiymətləndirmək imkanı verir.

Yunanıstanda klassik antik dövrün böyük günlərinin qalıqları göz önündədir. Rast gəldiyimiz abidələr müasir insana bir çağırış kimi səslənir, qədim insanların vaxtı qabaqlayan yaradıcılıq enerjisinə ehtiramla yanaşmaq hissləri təlqin edir.

Bu ölkə əsrlər ərzində öz həyatsevərliyini saxlayaraq, çox sayda xalqların qarışığından meydana gəlmişdir. Bu torpaqlar uzun müddət ərzində Avropa, Asiya və Afrika xalqlarının yolayrıcı olmuşdur. Yunanıstan hələ qədimdən Orta Şərqlə tanış idi, onun dili və qidalanması isə Türkiyədən, Muqəddəs Torpaqdan, Misirdən və daha uzaqlardan gələn ellinistlərin müdaxiləsi ilə seçilir. Yunan tacirləri və digər hətta ziyalı adamlar əcnəbi həyat tərzinə yiyələnir və Vətən barədə öz güclü xatirələrini qoruyub saxlayırdılar. Elə təsəvvür yaranırdı ki, guya onlar heç vaxt yunan torpaqlarını tərk etməmişlər. Öz doğma elinə belə bağlılıq yunan musiqisinin melanxoliyasının və nostalji mahnıların motivlərinin yaratdığı hisslərdə ifadə olunurdu. Torpağın becərilməsinin və dənizlərdə üzməyin çətinlikləri gözlənilən həyatın keşməkeşli olacağını yada salırdı. Bu iki sahədən isə yunanlar əsrlər ərzində dolanışıqlarını çıxarırdır, çörəklərini qazanırdılar.

Yunanıstan landşaftı təkcə özünün gözəlliyinə görə deyil, həm də yaşayış üçün mürəkkəbliyinə və müxtəlifliyinə görə fərqlənirdi. Antik dövrün görkəmli coğrafiyaçısı Strabonun qeyd etdiyi kimi, dəniz aparıcı təsirə malik idi, axı ölkə hər tərəfdən dənizlərlə əhatə olunmuşdur və çox yerdə quru ərazilərə xəncər kimi soxulur. Ölkənin topoqrafiyasında ikinci başlıca amil dağlardır. Onlar ölkə səthinin, demək olar ki, dörddə üçünü tuturlar. Dağ vadiləri, kiçik düzənliklər üçüncü elementi təşkil edir. Kiçik buxtaların münbit torpaqları sivilizasiyanın ilk ilhamlandırıcısı olmuşdur. Dəniz isə ayrı-ayrı icmalar arasında əlaqələr yaratmış, uzaq ölkələrlə də təmasın inkişafını təmin etmişdi.

Bütövlükdə təbii şəraitlər tarixi inkişafın ilkin mərhələsində yunan mədəniyyətinin çiçəklənməsi üçün çox əlverişli olmuşdu. Yunan təbiəti insana çox da əliaçıq deyildi, əlverişli həyat şəraitlərini heç də asan şəkildə vermirdi, əvəzində adamları əməksevərliyə, işgüzarlıqda ilhamlandırırdı.

Ölkədə hələ qədim dövrlərdən şəhər həyatı artan dərəcədə əhəmiyyətli olmuşdu. Qədim yunan mədəniyyətinin qalıqları da məhz şəhərlərdə qalmışdır. İndi isə muzeylər müasir yunan mədəniyyətinin vacib elementi kimi çıxış edir.

Yunan sivilizasiyası

Qədim Yunanıstanın Qərb sivilizasiyasının tarixində xüsusi rolunu müşahidə etmək, onu izah etməkdən daha asandır. Onun fərqli bir cəhəti də ondadır ki, özündən əvvəlki Nil, Mesopotamiya və ya İndə aid olan böyük sivilizasiyalardan fayda götürmüşdür. Bu sivilizasiyanın nailiyyətləri, irsi zəkanın və siyasi həyata yaxınlaşmanın müxtəlif yollarını göstərirdi. Qədim Yunanıstan bütün qədim mədəniyyətlər içərisində ən savadlısı idi, savadsız adamlar demokratiya yolunu

seçə bilməzdi. Epik poeziya, qanun kodeksləri və lirik şeirlər üçün yeni öyrənilən əlifba yazısından istifadə olunurdu. Burada ilk dəfə ənənəvi miflərin dramatik tamaşaları və xor ifaları meydana gəlmişdi.

Yunan fəlsəfəsinin təşəkkül tapması kainat haqqında nəzəriyyə kimi miflərin kosmologiyasını əvəz etməkdə istifadə olundu. Bu isə hökmən praktiki elmi kəşflərə aparıb çıxarmalı idi. İnsanın fikir prosesinin tədqiqatı və məntiq siyasi və fərdi əxlaq praktikasını ifadə edirdi, həm də onlara öz təsirini göstərirdi.

Yunan fəlsəfəsi insanı bütün varlıların ölçüsü kimi qəbul etdi və bəşəriyyət indi də qədim yunanların görkəmli ehkamlarını öyrənir. Ləyaqət, müdriklik və gözəllik barədə yunan standartları, onların idealizə olunmasına gətirib çıxardı. Heç bir qədim xalq dühanın belə geniş əhatəsini nümayiş etdirə bilməmişdi və belə güclü irs qoyub getməmişdi. Yunan tarixinin qəhrəmanlıq səhifələri elə iftixar hissi ilə ifadə olunmuşdur ki, yeni məqsədlər naminə də daha geniş istifadə olunur.

Qədim tarixçilər milli hadisələri ilhamla təsvir edir, bu sahədə onlar Şərqin və Misirin xronika yazanlarından fərqlənirlər. Herodotun «Tarix»i b.e.ə. V əsrin mənzərəsini əks etdirir. Elə həmin əsrdə yazıb-yaradan tarixçi Fukidid Peloponnes müharibəsinin əhvalatlarını, Persiyanın hücumunun dəf edilməsini qələmə almışdır. Bu dəqiq tarixçinin səyi hesabatla biz Periklin məşhur nitqi ilə – Peloponnes müharibəsində həlak olmuş afinalıların dəfn mərasimində etdiyi parlaq çıxışın mətni ilə tanış olmaq imkanı əldə etmişik.



Herodotun heykəli

B.e.ə. IV əsrdə meydana gələn Ksenofontun «Hellenica» əsəri Fukidid tarixini davam etdirir. Hərbi əməliyyatlar barədəki qənaəti praktiki cəhətdən onun

müəlliflik qabiliyyətini nümayiş etdirir. B.e.ə. I əsrində Siciliyada yaşayan yunan Diodor üç əsr ərzində adada baş verən hadisələr barədə mülahizələrini bildirir. Arrian isə Böyük Aleksandrın hakimiyyəti dövrünü təsvir edir. Plutarx ayrı-ayrı şəxsiyyətlər barədə maraqlı xarakteristikalarını verir. Onların əsərlərində Sokratın, Demosfenin, Esxinin çıxışları canlanır. Onlar siyasətə imkan sənəti, mənafelər məkanı kimi baxdıqlarından fərqli mövqelərdən şıxış edirdilər və Afinanın müstəqilliyinə qarşı olan təhlükəni tam əks qaydada qiymətləndirirdilər. Siyasət nəzəriyyəsi barədə Platonun. Aristotelin və digərlərinin əsərləri də burada mənbə kimi istifadə olunur.

Ədəbiyyat da geniş əhəmiyyətə malik olan tarixi hadisələrə münasibət bildirirdi. Arxeologiya isə qədim yazıçıların diqqət mərkəzində olan şeylərə məhəl qoymadıqları cəmiyyət problemlərini tədqiq edə bilirdi.

Arxaik dövrlər

B.e.ə. 1100–900-cü illərdə bu əraziyə dorilərin müdaxiləsi baş verdi. Bürünc erası sivilizasiyası burada süquta uğramağa və tədricən dağılmağa başladıqda, Mikena mədəniyyətinin qalan mərkəzləri də yoxa çıxdı. Əsr ərzində «müdaxilə» dalğa kimi baş verdi, bu, faktiki olaraq daxili münaqişələrin nəticəsi idi. Afina və onun regionları istisna olmaqla, müdaxilənin hər yerdə effekti mədəni standartların dağıdılması idi. Başlıca faktor isə iqlimin dəyişilməsi idi, quraqlıq aclığın yaranmasına səbəb oldu.

Yeni əhali məskunlaşdıqca ən azı həyat tərzi də dəyişirdi. Yeni mədəniyyət əvvəlkindən bəzi cəhətlərinə görə fərqlənirdi. Dorilər şimali-qərbdən olan yunanlar idi, mikenalılar Kipr adasına qaçmağa məcbur oldular. Dorilər Egey adalarında, xüsusən Kritdə də məskunlaşdılar. Bu dövr ərzində artıq mif tarixləriniin doqmaları və din Homer poemalarında inkişaf edirdi.

B.e.ə. 900-cü ildə yaxın Afina yunan dünyasının mədəni mərkəzi kimi meydana çıxdı. Şəhər bu vaxt yunan dünyası üşün dan şəfəqi rolunu oynaylrdı. Həmin dövrlərdə Egey də əsl yunan dənizinə çevrildi. Şərq zərgərləri Kritə gəlib, Knossosda məskunlaşdılar. Onlar burada qızılla, bürünclə və daşla işləyirdilər.

Homer poemalarının təsvir etdiyi şəhərlərdə müstəqil çarlıqlar yerləşirdi. Bəzi qəhrəman kultlarının təqdim edilməsini isə Homer poemaları ilhamlandırmışdı.

B.e.ə. VI əsrə qədər hələ xəritələr meydana gəlməmişdi. Bu vaxt torpağa və yeni resurslara ehtiyac yarandı, çünki ərzaq metaldan daha vacib idi. Yaxın ərazilərin coğrafiyası yunanların dənizçiliyə maraqlarını müəyyən edirdi, çünki ölkə özünün artan əhalisini ərzaqla təmin edə bilmirdi. Dənizçilik bu problemin həllinə kömək edə bilərdi. Aralıq dənizi məhz belə imkanları təklif etdi, Makedoniyalılar da mədəniyyət cəhətinə görə yunan idilər və onların maraqları da bir-birinə uyğun gəlirdi. Qara dənizə keçid çətin olsa da, heç də qeyri-mümkün deyildi, Şimaldakı royal skiflər üçün artıq bazar rolunu oynayırdı.

Afinanın uzaq qərbində yunanları finikiyalılar qabaqlamışdılar, onlar Karfagenin əsasını qoymuşdular. Bu vaxt yunanlar hələ İtaliyanı və Siciliyanı tədqiq edirdilər. Aralıq dənizi dünyasının digər zonalarının məskunlaşdırılmasından əvvəlki ticarət heç də möhkəm qaydada qurulmamışdı. Qərbdə – Cənubi İtaliyada və Siciliyada yunan koloniyaları meydana gəldi Tacirlər Etruriyaya (indiki Toskana əyaləti) gəlib çıxdılar. B.e.ə. VIII əsrin ortalarından Neapol sahili məskunlaşdırıldı, bura həm də yaxşı liman olacaqdı. Sonra yunanlar Siciliyada güclü Sirakuza şəhərini saldılar. Adanın qərbi isə finikiyalılara məxsus idi. İtaliyanın cənubunda axeyalılar heç də tək deyildilər.

Kiçik Asiyanın qərbi b.e.ə. VI əsrin ortalarında Persiyanın müdaxiləsi ilə üzləşdikdə, bir sıra şərqi yunan dövlətləri kütləvi şəkildə qərbə mühacirət etmək şansına bel bağlayırdılar.

Yeni şəhərlər varlanırdı və yunan dünyasının qərbində nəhəng məbədlər tikildi. Yunanlar qərb sularında əvvəldən maraqlı idilər və bu ərazilərdə finikiyalılara qarşı çıxırdılar. Yunan malları İspaniyaya gətirilirdi. Onlar Fransanın cənubunda Massiliya (Marsel) şəhərini salmışdılar. Qara dəniz ətrafında da bir sıra yunan koloniyaları – şəhərlər meydana gəldi. Onların skiflərlə əlaqələri yaranmışdı. Azov dənizinin kənarında da yunanlar indi də həmin adı daşıyan Kerç şəhərini salmışdılar. Qara dənizin sahilində Trabizend (indiki Trabzon) şəhərinin əsasını qoymuşdular.

Yunan–Persiya müharibəsindən əvvəl Qara dəniz yolu ilə daşınan taxıl Yunanıstana gətirilirdi. Kritdən cənuba gedən yolla yunanlar hələ çox-çox əvvəl Afrikanın şimalına, Liviya sahillərinə gedib çıxırdılar. Burada onlar Amon kultu ilə tanış olmuşdular və o yunanların ehtiram bəslədiyi orakula çevrilmişdi. Allah Zevs Ammon kimi tanındı.

Arxaik Yunanıstanda şəhər-dövlət (polis) məskunlaşma tipi meydana gəldi. Polis suveren siyasi birlik idi. Adətən, o, təpədə yerləşirdi, istehkamlanmış mərkəzə malik idi. Şəhər özündən asılı olan ərazi ilə əhatə olunurdu, bu ərazi kənd təsərrüfatı üçün və otlaq kimi istifadə olunurdu. Böyük polislər isə baş şəhərə tabe olan kəndlərə malik olurdu. Cəmiyyət aqrar tipində idi. Hər bir icma tam statuslara malik olan varlı torpaq sahiblərindən, fermerlərdən, torpaqsız əməkçilərdən və sənətkarlardan ibarət idi. Güclü birlik ailə idi.

Hər bir polisin vətəndaşları həmçinin irsi qaydada birliklərə bölünürdü, onlar tayfa mənasındakı file adlanırdı. Üç siyasi institut mövcud idi, bunlar çar, şura və yaşlı kişi vətəndaşlardan ibarət olan məclis idi.

Arxaik Yunanıstanda tiraniyalar

İctimai hakimiyyətdə bəzi proseslər tiranların meydana gəlməsinə səbəb oldu. Tiran və tiraniya sözləri heç də istismar rolunu nəzərdə tutmurdu. Mahiyyətcə tiraniya öz şəhərlərində hökmranlıq etmək üçün və nəzarəti ələ keçirən

rəsmi iddia ilə başlanmışdı. Əslində, tiranın heç bir vəzifəsi yox idi və tiran şəhər qanunlarını və institutlarını dəyişdirə bilmirdi, sadəcə qeyri-rəsmi qanuni aliliyə malik idi.

Sparta ilk çara malik idi. Sonralar Roma çarlıq quruluşundan respublikaya çevrildikdə spartalıların təcrübəsindən istifadə edərək, dövləti idarə etmək üçün iki konsul seçirdilər. Çar, şura və məclis hər bir yunan dövləti üçün isə adəti nümunə idi. Sparta isə daha böyük orqana – 5 nəfərdən ibarət eforlara malik idi. Onlar məclis yığıncaqlarına sədrlik edir, məsələnin həllinə təsir göstərə bilirdilər.

B.e.ə. VI əsrdə Solon Afinada varlılar və kasıblar arasındakı güclü antoqonizmin mövcudluğundan danışırdı. O, 594-cü ildə arxont idi və qanun yazırdı. O, torpağı quldarlıqda saxlayan «sərhəd daşlarını» uzaqlaşdırdı, əvvəllər sahibinin şıltaqlığından titrəyən adamları azad etdi. Solonun islahatına qədər Afina adətlərinə görə onlar torpağı varlı torpaq sahibləri üçün becərir və məhsulun altıda birini onlara verirdi. Solon həmçinin adamları məhsulun «altıda bir hissəsini» verməkdən də azad etdi. O, torpaq sahiblərindən asılı adamları tam azad etdi, hər hansı bir səbəbə görə asılılıq statusunu ləğv etdi, onlar tam azad vətəndaşlara çevrildilər.

Klisfenə gəldikdə, onun böyük islahatı 500-lər şurasını tətbiq etməsi idi. Hər bir tliba Şuraya 50 üzv göndərirdi. Klisfen cəza tədbiri kimi ostrakizmi tətbiq etməyə başladı. Bu cəzanın verilməsi üçün 6 min nəfərin səs verməsi tələb olunurdu. Daha çox səs verilən çəxs on illiyə Attikanı tərk etməli idi, lakin onun mülkiyyətinə toxunulurdu.

Yunan polisləri, adətən, kiçik olurdu. Onların arasında aparıcı rol oynayanlar Sparta, Afina və Fiva idi.

B.e.ə. V əsrdə Persiya çarı Böyük Kirin Lidiyanı işğal etməsi ionluların və digər şərq yunanlarının tabe edilməsinə gətirib çıxaracaqdı. Persiyalılar onlara tamamilə yad idilər və paytaxtları da iki aylıq səfərdən çox olan bir məsafədə idi. Onlar yerli tiranların nəzarətinə arxalanırdılar, belə idarəçilik isə yunanlar üçün anoxronizm idi. Ona görə də ionlular üsyan qaldırdılar.

B.e.ə. 490-cı ildə persiyalılar Egey sahillərinə ikinci dəfə qüvvə göndərdilər. Xainlər onlara qapını acdıqda, əhali qul edildi. Persiyalılar Marafon buxtasında sahilə çıxdılar. Yunan generallarından daha dinamiki olan Miltiadın ayağa qaldırdığı afinalılar düşməni Marafon düzənliyində qarşılamağı qərara aldılar. Afinalılar həlledici döyüşdə say tərkibi iki dəfə çox olan persiyalılar üzərində qələbə çaldılar. Bu qələbədən sonrakı onillkdə Afinanın güclü siyasi rəqibləri meydana gəldi. Miltiad isə sonrakı ili başqa bir ekspedisiyaya başçılıq edəndə, məğlub olduğuna görə ona elan edilmiş ölüm hökmü yumşaldılıb, ağır cərimə ilə əvəz edildi, lakin bundan bir az sonra o, öldü.

Femistokl isə Persiyanın böyüyən təhlükəsindən agah olduğundan xalqı inandırdı ki, pulu triyerlər qayırmağa sərf etmək lazımdır. Onun yeni Afina donanması persiyalıları dəf etməkdə həlledici faktorlardan biri oldu.

Sonralar Persiyanın daha iri ekspedisiyası Yunanıstanı işğal etməli idi. Kiçik yunan ordusu Fermopildə dayanmışdı, oradakı dağla dəniz arasındakı dar keçidi əlində saxlayırdı. Buradakı uğursuzluq Yunanıstanın şimalını itirmək demək idi.

Afina evakuasiya edilmişdi, ancaq az sayda bir qüvvə saxlanmışdı ki, Akropolu müdafiə etsin.

Fermopil keçidində persiyalıların 200 minlik ordusunun yolunu 1400 adam kəsmişdi. Onlardan yunanlar çıxıb getdikdə, burada 300 spartalı qalmışdı, onlara çar II Leonid başçılıq edirdi. Spartalılar nəhəng düşmən ordusu tərəfindən məhv ediləcəklərinə şübhə etmirdilər. Lakin onlar geri çəkilmək barədə düşünmürdülər də. Onların hamısı həmin gün düşmənin ox yağışı altında həlak oldu, lakin tarixin çox şərəfli bir səhifəsini yazdı. Min illər keçsə də, onların qəhrəmanlığı unudulmur və bəşəriyyət yeri gəldikcə bu döyüşçülərin dəlisov igidliyini himn qaydasında vəsf edir.

Yunan donanması Salamin adasında dayanmışdı, dar sularda vuruşmaqla, qalib gələcəyinə ümid edirdi. Persiya çarı Kserks qərbdəki boğazı bağlamışdı. Yunanlar Salamində tam qələbə çaldılar və Kserks öz donanmasını geri çəkməli oldu.

Kserks ordusu ilə quruda həlledici döyüş Plateyada getdi. Persiya generalı Maradoni səhər tezdən hücuma keçdi və asan qələbə çalacağını gözləyirdi. Lakin yunanların Spata qanadı döyüşün nəticəsini həll etdi. Maradoni öldürüldü, Persiya ordusunun qalıqları qaçmağa başladı. Salamindən sonra yunanlar böyük qələbə çaldılar. Bu qələbə İoniyada üsyanın geniş yayılması üçün siqnal oldu.

Sonralar Afina ilə Sparta arasında münaqişə baş verdi. Afinalılar Pelononnes sahilində limanları tutmağa cəhd edərkən məğlub oldular.

Perikl demokratiyası və imperializm

B.e.ə. V əsrin ortalarında Afina yunan dövlətlərinin Liqasını imperiyaya çevirməkdə uğur qazandı. Bu vaxt aparıcı Afina siyasətçisi və generalı Perikl orduya götürüldü. Peloponnes ordusu Afina qarnizonunu darmadağın etdi. Perikl spartalıların geri çəkilməsi barədə danışıqların aparılmasına nail oldu. Afina imperiyası Sparta tərəfindən tanındı.



Periklin büstü

Perikl Afina demokratiyası və mədəniyyətinin keyfiyyətində ağıla gələn bütün ideyaları birləşdirdi və bundan Afina məbədlərinin tikilməsi üçün istifadə olundu. Əvvəlkilərdən fərqli olaraq Periklin tikdirdiyi məbədlər mərmərdən idi. Yeni tikililərdən ən böyük təəssürat yardanı Parfenon idi, orada böyük heykəltəraş Fidinin yaratdığı ilahə Afinanın qızıldan və fil sümüyündən gözəl heykəli var idi. Akropolun yamacında «Odeon» teatrı tikilmişdi.

Perikl istedadlı natiq idi; məclis onun mühakiməsini qəbul etməyə öyrənmişdi və onun aparıcı mövqeyinin ifadəsinə qulaq asırdı. Özündən əvvəlki strateq olan Fukidid ostrakizmə məruz qaldıqdan sonra 15 il ərzində dalbadal general (strateq) seçilmişdi. Onun hakimiyyətinin real mənbəyi öz şəxsi nüfuzu idi. Tarixçi Fukidid onun b.e.ə. 431-ci ildəki matəm çıxışı barədə geniş məlumat verir. Bu çıxış Peloponnes müharibəsinin birinci ilində həlak olan afinalıların xatirəsinə ehtiram əlaməti idi. Həm də bu çıxış, naminə Periklin çox iş gördüyü demokratiyanın başlıca xüsusiyyətlərinin konturlarını xatırladırdı. Afina dünyaya geniş açılan şəhər idi, əcnəbiləri də mehribanlıqla qarşılayardı, onlar Afina ticarətində aparıcı rol oynayırdılar. Şəhər-dövlətdə suveren orqan məclis idi, onda hər bir vətəndaş bərabər səsə malik idi. Mühüm siyasi məsələlər açıq havadakı yığıncaqlarda müzakirə edilirdi, kvorumun 6 min nəfərdən ibarət olması tələb olunurdu.

Fukidid Perikl epoxasını Afinanın qızıl dövrü kimi qiymətləndirir, keçmişinə baxaraq deyirdi ki, «Bu demokratiya adına idi, lakin real olaraq birinci adamın idarəetməsi idi. Perikl məclisi inandırırdı, məclis isə kütləyə məhəl qoymamaqdan uzaq idi».

Afina vətəndaşlarının rifahı yüksək standartlar səviyyəsində idi. Perikl həm də ambitsiyalı tikinti proqramı irəli sürmüşdü. İllik təzminat daxil olmasa, onu həyata keçirmək də olmazdı.

Lakin Afinanın dinc və müəyyən mənada xoşbəxt həyatı uzun sürmədi və Peloponnes müharibəsi b.e.ə. 432-ci ildə başlandı. Afina donanması həm gəmilərin sayına görə, həm də təcrübəsinə görə əks tərəfdə vuruşanlara nisbətən daha güclü idi. Lakin Perikl Sparta ilə həlledici döyüşdən qaçırdı. Attika tərk edildi və onun əhalisi Afinada sığınacaq tapdı. Şəhəri Pireyə qədər olan divar qoruyurdu.

Spartanın zəif cəhəti onun donanmasında və maliyyə imkanlarında idi. Sparta hələ də öz valyutası kimi dəmir lövhələr düzəldirdi. Onun müttəfiqləri də aqrar dövlətlər olmaqla, kasad resurslara malik idi. Lakin Sparta ordusu sayca daha çox tərkibə malik idi, 30 min nəfərdən ibarət olmaqla, Afinanınkından iki dəfədən də böyük idi. Spartalılar Attikaya müdaxilə edib, onu viran qoydular. Həmin ildə daha bir mühüm hadisə baş verdi, izafi sıx əhalisi olan şəhər kimi Afinanı taun xəstəliyi başına götürdü, vuruşan adamların dörddə birini və daha çox proporsiyada qadınları, uşaqları və qulları epidemiya öldürdü. Perikl komandanlıqdan azad edildi. Lakin qısa müddətdən sonra yenidən seçilsə də, b.e.ə. 429-cu ildə öldü.

Altı il sonra atəşkəs yarandı, bu, daimi sülh bağlamaq yoluna daşın döşənməsi demək idi. Sülh bağlandıqdan sonra da nə Spartada, nə də Afinada stabillik yox idi.

Müharibə ərzində Afinanın mədəni həyatı və intellektual iqlimi sürətli dəyişikliklərə uğradı. Sofistlər nəsli meydana gəldi, onların ümumi təsirinə həm də Sokratın təsiri əlavə olunmuşdu. Sokrat özü kasıb adam idi, qonorar tələb etmirdi, adamları düzgün dəyərlər ruhunda tərbiyə etməyə çalışırdı. O, dövlət qarşısında xidməti vətəndaşlıq borcu hesab edirdi. Həmin günlərin qabiliyyətli gənc adamlarının bəzilərinə valeh olmuşdu, adamlara güclü cəsarət hissi təlqin edirdi. Onun antitezis barədəki ehtirası ritorikaya olan marağını nümayiş etdirirdi. Tarixçi Fukidid bütövlükdə allahlara məhəl qoymurdu, Evripid onunla mübahisə edirdi, ancaq o, insan davranışının kökləri ilə dərindən maraqlanmırdı. Aristotel də köhnə dəbdə olan adam deyildi. İzah edirdi ki, faciə sadəcə köhnə dəblidir və bəzi cəhətlərini itirmişdir. Evripidin pyesləri real olmağa azacıq meyl edirdi, xor isə artıq iflasa uğrasa da, bəzən sadəcə musiqi prelyudiyası xidməti göstərirdi.

Afina müharibədən sonra öz imperiyasını və yunan dünyasındakı liderliyini itirdi. Sparta isə qan tökmək və müharibə metodları ilə öz imperiyasını təşkil etdi. Sparta və Persiya çarları arasında müqavilə bağlandı, İoniya yunanları Persiyanın mərhəmətinə tabe edildi. Buna baxmayaraq, Sparta İoniyadakı yunan şəhərlərini qarət etdi. Lakin müqavilədən az sonra Sparta iflasa uğradı. Sparta heç vaxt bir daha qüdrətli olmadı. Tarixçi Ksenofontun sözlərinə görə, spartalılar "öz zamanlarına belə bir inam bəsləyirdilər ki, onların bütövlükdə ağalığı şərəfli olmaqla yanaşı, həm də möhkəm qurulmuşdur". Lakin o həm də əlavə edirdi ki, allahlar ilahi və bəşər qanunlarına zorakılıq edən adamları unutmurlar, "kimlər ki muxtar şəhərləri tərk etməyə and içmişlər, özlərinin birinci cəzasından əzab çəkməyə yaxınlaşırlar."

Əgər Sparta həqiqi inkişaf yolu ilə hərəkət etsəydi, yunan dünyasının birliyinə zərbə dəyməzdi və onun irəliləməsində fasilələr baş verməzdi. Lakin yunanlar daha ağılsız hərəkətlərə yol verirdilər. Qədim romalıların "Kimi Yupiter

məhv etmək istəyirsə, onu ağıldan məhrum edir” zərb-məsəli yunan birliyi qayğısına qalmayanlara birbaşa aiddir.

Persiya amilinə görə, yunanlar bir-birinə nifrət edirdilər və özlərini bu yolla məhv edə bilərdilər. Onların Persiyaya təhlükəsi isə yalnız cüzi idi.

B.e.ə. IV əsrin ikinci rübündə Afina demokratiyası yenidən bərpa olundu. Dağılan şəhər də 404-cü ildə bərpa edilmişdi. Artıq Sparta da süqut etmişdi və heç də qüdrətli deyildi.

Fiva çarı Epaminond Peloponnesə girdi. Spartanın qapısına od və ölüm gətirdi. Ksenofontun dediyi kimi, «Heç vaxt silahlı düşməni görməyən şəhər qadınları dözülməyən düşmənin törətdiyi yanğından qalxan tüstünü gördülər». Epaminond həm də Afinaya çağırış şəklində özünə donanma qüvvəsi yaratdı. Fivalıların cəsarəti hədd tanımırdı. Spartalılarsa döyüşün qızğın çağında Epaminond şəhərin içərisində öldürüldü, nəticəni həll edilməmiş şəkildə qoyub dünyadan köçdü.

Afina da artıq seçim mövqeyində deyildi, şəhər viran qalmışdı, aclıqdan və susuzluqdan əziyyət çəkirdi. Afina öz imperiyası ilə yanaşı, illüziyalarını və ambisiyalarını da itirdi. Şəhər bir gündən digərinə keçmək üçün yaşayırdı, maliyyəsini, iqtisadiyyatını bərpa etməyə çalışırdı. 355-ci ildə əvvəlki 404-cü il kimi onun tarixində yeni era açıldı. Bu, Afina imperiyasının sonu ilə əlamətdar oldu. Makedoniya isə özünün yeni erası ilə özünə yeni üfüqlər açdı. O, yeni dövlət kimi b.e.ə. VI əsrin başlanğıcında təşəkkül tapmışdı. Ovçuların, içki düşkünlərinin, döyüşçülərin və kəndlilərin geridə qalmış bir ölkəsi idi. Onları yunanlar barbar kimi qiymətləndirirdilər. Adamların zorakılığı və dəlisovluğa müraciət etməsi adi bir hal idi. Region qızılla və gəmi qayırmaq üçün ağac materialı ilə zəngin idi. Həm də Afina da daxil olmaqla yunan şəhərlərinə taxılın nəqli üçün başlıca yol idi. Lakin afinalılar onu özlərinə düşmən etdilər. Ölkənin paytaxtı Pellaya köçürüldü və bura, yunan şairlərini özünə cəlb edən intellektual mərkəzə çevrildi. Makedoniya endemik sayılan böhranlardan konvulsiya etməsini dayandırdı.

B.e.ə. 399-cu ildə çar Arxelayın ölümündən sonra Makedoniya 40 il ərzində saraydaxili inqilablarda boğulurdu. Ölkə yeni bir təhlükədə olduqda Filippi və Aleksandrı meydana gətirdi. Filipp öz gəncliyinin üç ilini girov kimi Fivada keçirmişdi. Sonra taxt-tacda olan cavan qohumuna regent təyin edildi. Fərasətli, qabiliyyətli Filipp Məclisə arxalanaraq uğur qazandı, yunanlar üzərində yeni ağalıq qurmaq üçün ilk dövr üçün yeni birlik yaratmağa nail oldu.

Filipp 23 yaşında artıq təcrübəli siyasətçi və inzibatçı idi, Makedoniya əyalətlərini idarə edirdi. Üç ildən sonra gənc qohumunu taxt-tacdan uzaqlaşdırdı. 356-cı ildə printsessa Olimpiya ona varis ümidi verən olan uşağını - Aleksandrı doğdu. Elə həmin ili Filipp öz regentliyini çar titulu ilə dəyişdirdi. Bu, onun ümidlərinə və arzularına yaşıl işıq yandırdı. O, özünü bir sıra ehtiraslarına həsr etdi, bunlardan biri ölkəsinin gələcəkdə ən böyük dövlət kimi görmək idi. O, müstəsna xarakterə malik idi, təhsil görmüşdü, sivilizasiyalanmışdı, ellinist olmuşdu. Yorulmaz bir adam idi, şərabı və qadınları da sevirdi. Həm də əcnəbilərə qarşı öz lətafətindən necə istifadə etməyi bilirdi. O, çevik diplomat bacarığına malik idi, həm də istedadlı sərkərdə idi. Bir sözlə, liderliyin bütün keyfiyyətlərinə

malik idi. Səbirli və sistemli qaydada hərəkət etməklə o, öz problemlərini bir-birinin ardınca həll edirdi.

Filipp özünün nəhəng çarlığının idarə olunmasını yenidən qayda yaratmaqdan başladı. Makedoniya o vaxtlar yunan dünyasında ən böyük və daha çox əhalisi olan bir ölkə idi. Hakimiyyəti öz əlində mərkəzləşdirməklə o, Makedoniyanı, işğal etdiyi torpaqları ellinistik etmək yolu ilə və qonşularının hesabına hətta daha böyük dövlətə çevirdi. Ona müqavimət göstərən şəhərlər dağılırdı və onların yerində yeniləri salınırdı. O, urbanizasiyanın aludəçisi idi, yollar tikir, kənd təsərrüfatını inkişaf etdirməyə çalışırdı. Onun kəndliləri əla əsgərlər idi, məşq edir, intizama cəlb edilirdilər və onlar öz baş komandanlarına tam valeh olurdular.

Filipp birinci növbədə pula ehtiyac duyurdu. Onun işğal etdiyi ərazidəki qızıl mədəni ildə 1.000 talant pul verirdi. Orada çıxarılan qızıldan olan pullara öz adını vermişdi, bunun üçün o, yeni pul sikkələri buraxmağa başladı və gözəl «filipplər» onun siyasətinin bir alətinə çevrildi. O, konsessiyalar satın almaq sənətini başa düşür və həyata keçirirdi.

Əla hazırlaşmış ordunun başında II Filipp Epirin bir hissəsini tutdu, Makedoniyanın cənub sərhədini isə Fessaliya hesabına genişləndirdi. Qərb sərhədində möhkəm qarantiyaya sahib olmaq üçün İlliriya çarının qızı Olimpiya ilə diplomatik manevr naminə evlənmişdi. Filipp həm də qərara gəldi ki. Makedoniya dənizə çıxışa malik olmalıdır. Afina üçün həyati əhəmiyyətə malik olan bir kiçik şəhərə hücum etdi və afinalılar özlərinin də çox qan itirəcəkləri perspektivini aydın gördülər. Filipp şəhəri tutdu, Pidna şəhəri ilə dəyişdirməyə söz versə də, hər iki şəhəri işğal etməyi ən düzgün qərar hesab etdi. Afinalılar müharibədən heç nə əldə edə bilmədilər, razılığı qəbul etməli oldular. Filipp taxta əyləşən kimi qüdrətli və sıx əhalisi olan Makedoniyanı birləşdirməyin ustasına çevrildi. Afina isə özünün patsifist siyasəti hesabına bu proseslərə qarşı kor olaraq qalırdı. Yalnız natiq Demosfen bu vaxt özünün siyasi karyerasına daxil olmaqla, ciddi bir təhlükənin mövcud olduğu qərarına gəldi. O, afinalıları inandırırdı ki, “Persiya ilə sülhü qoruyub saxlasın ki, bütün qüvvələri Makedoniyaya qarşı cəmləşdirə bilsin.” Yalnız Afina Makedoniyanı dayandıra bilərdi, afinalılar isə hər gün şimaldan gəlmiş artan təhlükə ilə, ancaq öz regionunun taxılla təchizatının əhəmiyyətini nəzərə alaraq, üzləşməyəcəkdi.

Filipp Afinaya müdaxilə şansını gözləməli oldu. O, Üçüncü Müqəddəs müharibə adlanan hadisəni bəhanə kimi istifadə etdi. Guya o, qəzəblənmiş allahın hüquqlarını müdafiə edir. Bu, canavarı qoyun yatağına cummağa cəlb etdi, 354-cü ildə Filipp Olimp dağının ətəyindəki Mefon şəhərini tutdu. Afinada Demosfen hiss etdi ki, bu, Makedoniyadan olan təhlükəli cazibə qüvvəsidir. Filipp birinci döyüşdə məğlub olsa da, ləngimədən qisas aldı və Fessaliya onun hökmranlığı altına keçdi. Fiva isə onun tərəfini saxlayırdı. Makedoniya Afina əleyhinə hər şeydən istifadə edirdi, siyasətçiləri və adamları bir-birinin əleyhinə qızışdırırdı. Bu vaxt Demosfenlə Filipp arasında böyük duel getdi, lakin bu duelin şərtləri bərabər xarakter daşımırdı. Çünki Filipp öz ordusuna, diplomatiyasına, məqsədləri və qərarları üzərində nəzarətinin köməyinə bel bağlayırdı. Demosfenin isə yeganə

silahı onun bəlağətli nitqi idi, lakin həm də qatı müxalifləri ilə əhatə olunmuşdu. Ən pisi isə o idi ki, onların hamısı elə onun öz həmvətənləri idi.

Afinada generallar erası öz yerini natiqlər erasına vermişdi. Onlardan Esxin kimi bəziləri Filipp tərəfindən satın alınmışdı, digərlərini isə təhlükəni görmək imkanını arzulamayan və xalqın rəğbəti ilə oynayan İsokrat müdafiə edirdi.

Sonrakı niyyətlər ən azı o adamlara aydın idi ki, onlar onu görmək istəyirdilər. Filipp Fessaliyanı anneksiya etdi və Fermopil qarşısına çıxdı. Bu cəld hərəkət Yunanıstanda bir zərbə təsiri bağışladı. Lakin Filipp hələ meyvənin yetişmədiyini gördü. O, geri çəkildi, səbirlə yaxşı imkanın gəlməsini gözlədi. O, Afinanın təsirini yoxa çıxarmaq məqsədi güdən danışıqlara başladı. Əllərinin sərbəst olduğunu görüb, üzünü yeni qurbanına tərəf çevirdi. Afina ilə saziş bağladı. Demosfen özünün birinci «Filippika»sında (b.e.ə. 351-ci il) bu müqaviləni atəşə tutdu. Filipp Makiavelli üslubunda hərəkət edərək, Evbeyada qiyamı qızışdırdı. Afinanın göndərdiyi üç ekspedisiya 348-ci ildə təslim oldu. Filipp müqavimət göstərilməsinə son qoymaq üçün sakinləri qul olmaq üçün satdı, 32 şəhəri dağıtdı və həmin əraziləri Makedoniyanın tərkibinə daxil etdi. Makedoniyanı dayandırmağa Afinanın gücü yox idi, ümidini yalnız öz dəniz qüvvələrinə bağlayırdı.

Afina Pellaya elçi göndərdi, iki rəqib – Esxin və Demosfen bu siyasətə qarşı çıxdı. Afina səfirləri Makedoniya paytaxtında bir ay yarım qaldılar. Filipp özünün və müttəfiqlərinin adından sülh müqaviləsini imzaladı. Onun siyasi aliliyi Yunanıstanın dünyəvi və dini hakimiyyətinin gözündə möhkəmləndi.

Filippin öz diplomatiyasına və ordusuna borclu olan zəfəri onun şimali və mərkəzi Yunanıstanda baş hökmran olmasın əminlik yaratdı. Afinada da onun müttəfiqləri çoxaldı. Ritorika müəllimi olan İsokrat onda bütün Yunanıstanı birləşdirməyə qadir olan və onları Persiya çarına qarşı böyük səlib yürüşünə aparmağa başçılıq edəcək, taleyin bəxş etdiyi bir adamı gördü. Baxmayaraq ki, bu vaxt Persiyanın Afinaya təhlükəsinin mövcudluğuna son qoyulmuşdu.

Beləliklə, Afina və Filipp sülh bağladılar, hətta müttəfiqlərə də çevrildilər. Filipp isə hələlik özünün bütün Yunanıstanın ali ağasına çevrilmək barədəki ambitsiyasını udurdu: bütün Yunanıstanda isə artıq ona müxalif olan bir şəhər belə yox idi. Demosfen axırıncı iki «Filippika»sını nəşr etdirdi.

B.e.ə. 339-cu ildə Dördüncü Müqəddəs Müharibədə Filipp sövdələşməni qəbul etdi. Lakin afinalılar panikaya düşmüşdülər. Filipp Attika yaxınlığında, qısa müddətdə Afinanın divarları qarşısında dayanacaqdı. Beotiya düzənliyində müttəfiq qoşunlarının Makedoniya falanqasının darmadağın etməsi ilə yunan azadlığına son qoyuldu, Filipp Yunanıstan üzərində hökmran oldu. Afina çox asan şəkildə tutuldu. Lakin Filipp Afina sivilizasiyasına borclu olduğuna görə işğal etdiyi şəhərə yüngül şərtlər bəxş etməklə, ehtiram göstərdi. Afinalılar öz donanmalarını saxladılar. Limanları da azad olaraq qalırdı. Əgər Afina Esxinə qulaq assaydı, vuruşsuz qaydada alçaldılacaqdı. Demosfenlə birlikdə bu, işğalçının hörmətini qazandı. Filipp bir daha barbardan daha çox yunan olduğunu göstərdi. Filipp öz qələbəsindən sonra da dayanmaq istəmirdi. Afinanın və Mərkəzi Yunanıstanın ağası kimi o, Evbeyanı işğal etdi və sonra Peloponnesin üstünə

düşdü, vuruşmadan orada öz iradəsini həyata keçirdi. Yunanıstan onun ayaqlarına yıxıldı.

Filipp Korinfdə bütün Yunanıstan nümayəndələrinin iştirakı ilə yığıncaq keçirdi. 337-ci ildə «Panellinist» liqasının mövcudluğu meydana gəldi. Beləliklə, Filipp İsokratın ideyasını həyata keçirdi. Makedoniya çarı bu vaxt yunanların hegemonuna və strateqinə çevrildi. Liqaya daxil olan dövlətlər muxtar dövlətlər elan olundular. Onlar təzminat ödəyir, federal orduya və donanmaya əsgər göndərməyə də borclu idilər. O vaxtdan yunanlar əleyhinə silah qaldırmaq qadağan olunmuşdu.

Filippin portreti

Filipp məxmər əlcəklərindəki dəmir əli ilə öz ağalığını örtməkdə kifayət dərəcədə bir diplomat istedadı nümayiş etdirirdi. O, həm də realist olmaqla, ümumi düşmənə qarşı Asiya yunanlarını azad etmək üçün, çox müxtəlif olan adamlar arasında bağlığı möhkəmləndirməyin vacib olduğunu bilirdi.

Korinfdə o, barbarlara qarşı səlib yürüşü təşkil etməyi təklif etmişdi. Makedoniya ordusu Efes şəhərini tutdu, Əhəməni imperiyasının sona yaxınlaşdığı artıq görünürdü.

Lakin Filipp öz unikal qələbələrində taleyin hökmünü nəzərə almırdı. 336-cı ildə onun 48 yaşı var idi, möhtəşəm bir bayram keçirəndə, qızı Kleopatra ilə Epir çarının toyunu təşkil etmişdi. Bu vaxt o, qatilin xəncər zərbəsindən yerə yıxıldı. Filipp öldü, lakin Ellinizm sağ qalmaq şansına malik oldu. İsokratın və Demosfenin ölkəsində də bu ideya sönmədi və Filippin oğlu və varisi gənc Aleksandrın ürəyini riqqətə gətirdi. Aleksandrın bu vaxt 20 yaşı var idi. 18 yaşında o, Xeroneyada döyüşdə olmuşdu və 13 yaşı olarkən Filipp Aristoteli onun müəllimi təyin etmişdi. Aristotelin şagirdi Şərqi ellinləşdirməli idi.

B.e.ə. IV əsrdə yunan mədəniyyəti və cəmiyyəti

Filipp yunan şəhərlərini birləşdirdikdən sonra onların qələbələri heç vaxt kəsilmədi, lakin sülh də əmələ gətirə bilmədi. Müharibədən qaliblər və məğlub olanlar da bərabər şəkildə əzab çəkirdilər. Müharibədən qayıdan adamlar kotan arxasında işləməkdən imtina edirdi, onların həyat tərzi də təhlükə vəd edirdi, soyğunçuluqla məşğul olmağa meyil edirdilər.

Filipp öz heykəllərini allahların heykəllərinin yanında qoydurmuşdu və fikirləşirdi ki, yunanlar Olimpiya müqəddəs məkanında onun da heykəlinə sitayiş edəcəklər. Aleksandr isə öz valideynlərinin ilahi mənşəli olduqlarına inandığından, hökmdarın kultunu yaratdı və tələb etdi ki, belə bir qayda qəbul edilsin ki, o, hələ sağlığında allah olacaqdır.

Yunan rəngkarlığı və heykəltəraşlığı inkişaf və axtarışlar yolu ilə gedirdi. Rəssamlar könülün hərəkətini izah etmək üslubunu seçirdilər, sifətin ifadəliliyini göstərmək yolların axtarırdılar. Heykəltəraş Praksitel isə daha sentimental olmaqla, gülüşün şirinliyini dolayı yolla izah etmək istəyirdi. Qadın bədənini bütünlüklə çılpaq göstərməyə cəsarət edirdi, hətta ilahələri də bu şəkildə təsvir edirdi. Arxitekturada isə yenilik olduqca çox idi. Teatrlar çoxalırdı və daş oturacaqlar Sirakuzada meydana çıxdı, sonralar Filippin və Aleksandrın hesabına Olimpiya yeni tikililərlə zənginləşdi. İoniyada hər yerdə məbədlər tikilir və ya yenidən qurulurdu. Dünyanın Yeddi möcüzəsindən ikisi – Efesdəki Artemida məbədi və Halikarnasdakı nəhəng Mavzoley bu dövrdə yaradılmışdı.

Praksitelin Afrodita heykəli

Ədəbiyyatda isə Afina rəssamlıqdan daha çox yunan dünyasının böyük paytaxtı olaraq qalırdı. Afinadan olmayan yazıçılar dərs almaq üçün oraya gəlirdilər. Afina siyasi rejimi də kimisə təqlid etməmək nümunəsini təklif edirdi. Teatr, poeziya iflasa uğradıqda, nəsrə yol açılırdı. Əvvəlki əsr, həqiqətən də, faciəni, komediyanı şərəfə mindirən parlaq tarixi görmüşdü.

Natiqliyə gəldikdə, İsokrat və Demosfen bir-birinə əks qütblərdə dururdu. Makedoniya idarəçiliyi barədə onların mübahisələri davam edirdi.

Fəlsəfə sahəsində isə Sokratın b.e.ə. 399-cu ildə ölümü, elmlə daha yaxından məşğul olmaq üçün Platonu aktiv siyasətdən uzaqlaşdırdı. O, səyahət edirdi ki, taxt-tacda filosofun olduğu ideal rejimi kəşf etməyə cəhd göstərsin. 387-ci ildə Siciliyadan qayıtdıqdan sonra o, siyasi elmlər mənbəyi olan Akademiyanın əsasını qoydu. Sokrat Platonu ləyaqətin reallığına inandırmışdı. O düşünürdü ki, dünya sadəcə illüziyadır. Lakin Platon Sokratdan daha uzağa və yuxarı getdi. Eyni vaxtda mistik və realistik olmaqla, o, Yeni Akademiyanın və neoplatonizmin atası di. Platonun dialektika metodu isə Sokratdan gəlmişdi. Həmin vaxt onun ən məşhur şagirdi Aristotel idi.

Aristotel Platondan az lətafətə malik idi. Platon ideyanın yüksək yolunu açdısa, Aristotel onun faktiki Yer səthindəki yolunu açdı. Ancaq hər ikisi bütöv bir məsələni – vahid, müqayisə olunmayan və dərin bir məsələni həll edirdilər.

Aristotel Aleksandrın müəllimi olduğundan, sonra da Makedoniyada yaşadı, Asiyaya da səfər edə bildi. O, b.e.ə. 335-ci ildə Afinada litsey kimi tanınan məktəbin əsasını qoydu, məktəb həm də «Peripatetik» adlanırdı. Günorta vaxtı oxunan mühazirələr ictimai xarakter daşıyırdı.

Aristotel Platondan öz realizminə görə fərqlənirdi, necə ki axırıncı da idealizminə görə özünü Sokratdan fərqləndirirdi. Aristotel belə qənaətə gəlmişdi ki, ləyaqət düşünüldüyünün içərisindədir, necə ki teatrda faciəyə tamaşa edərkən öz ehtirasını təmizləməklə həzz alırsan. Lakin mənəvi cəhətdən yaranan bir varlıq kimi olmamışdan əvvəl insan siyasi heyvan idi və bütün qabiliyyətlərdən birincisi də məhz siyasi qabiliyyətdir.

Etikada Aristotel öz realizminə görə Platondan fərqli di. Yunanlar tezliklə gördülər ki, Aristotelin gənc şagirdi Aleksandr ensiklopedik axtarışlarını məlum olan dünyanın hədlərindəki işğalları ilə əvəz etdi, tabe edilmiş bəşəriyyətdə tarazlıq və qayda yaratdı.

Böyük Aleksandrın işğalları

B.e.ə. 336-cı ilin yayının əvvəllərində Makedoniya çapı II Filipp öz qatilinin bıçaq zərbəsi ilə yıxılıqda, Yunanıstanda sevinc partlayışı baş verdi, axı Filipp onların milli düşməni olmuşdu. Afinalılar inana bilərdilər ki, atasının izi ilə getmək üçün varis Aleksandr çox cavandır. Onlar bilirdilər ki, o, Yunanıstana gətirilmiş və Aristotel tərəfindən tərbiyə olunmuşdu. O, Xeroneya döyüşü vaxtı atasının tərəfindən vuruşanda ehtirasla Homerin, Pindarın, Herodot və Evripidin əsərlərini öyrənmişdi. Afinalılar güman edə bilərdilər ki, onun ensiklopedik biliyi ruhun xüsusiyyətlərinə doğru birbaşa hərəkət etməyi mümkün etməlidir.

Aleksandr atasından irs kimi müharibə aparmaq zövqünü götürmüşdü, lakin Homerdən və Herodotdan özünə müharibə barədə ibrətamiz dərslər çıxarmışdı, həm də Asiya barbarlarına qarşı aparılacaq böyük mübarizənin nümunələrini

görmüşdü. O, həmçinin natiqlərin məsləhətlərinə qulaq asmışdı. Bilirdi ki, yunanlar uzun müddət ərzində öz mübahisələrinin barbar çarın vasitəsilə həll edilməsinə imkan vermişdilər. Atası ona yol göstərmişdi, Filipp Makedoniyanın ağalığı altında ümumi harmoniyaya nail olmaq məqsədilə Korinf Liqasını yaratmışdı. 337-ci ilin yazında artıq Persiyaya qarşı böyük qisas müharibəsi ideyası ona hakim kəsilmişdi. Filipp bu yolla birliyi möhkəmləndirmək istəyirdi.

Böyük Aleksandrın portreti

Aleksandr Filippin proqramını götürüb, onu həyata keçirdi. Asiyada müharibəni başlamaqla, Filipp yunanlar üzərində öz suveren hakimiyyətini bərqərar etmək məqsədini seçmişdi. Aleksandr isə şöhrət və işğal naminə öz iştahasını daha da gücləndirirdi. Lakin o, həm də özünün arxasında möhkəm sülhə əmin olmalı idi. Cavanlığına baxmayaraq, o, yunanları qorxudurdu. Fermopil üzərində ən azı göydəki şimşək kimi parlayan Leonidin ruhundan ilham alırdı.

Persiya çarı Aleksandrın atasının və özünün siyasətini yoxlamaq üçü elçilər və qızıl göndərdi, çünki belə bir şayiə yayılmışdı ki, Aleksandr İlliriya döyüşündə həlak olmuşdur. Lakin özünün sağ-salamat olduğunu göstərmək üçün Aleksandr vaxtı itirmədi. O, gözlənilmədən Yunanıstana bir başgicəlləndrici hücum etdi, 12 günə Fivanın divarları qarşısında dayandı. Şəhər təslim oldu. Qadınlar və uşaqlar daxil olmaqla, bütün sakinlər qırğına məruz qaldı və ya qul olmaq üçün satıldılar. Cəza çox qəddar xarakter daşıyırdı. Aleksandrın özü də tövbə etdi. O özü qırğından dəhşətə gəlmişdi. Ancaq terror səmərəsini göstərdi, yunanlar gördülər ki, ondan heç də asanlıqla yaxa qurtarmaq mümkün olmayacaqdır.

Bu vaxt Aleksandr artıq üzünü Asiyaya tərəf çevirə bilərdi. O, barbar Şərqi ilə sivilizasiyalı Qərb arasında körpü qurmağı planlaşdırırdı. 334-cü ilin yazında o, 30 min piyada və 5 min süvaridən ibarət kiçik, lakin yaxşı hazırlanmış ordu ilə Hellospont boğazını keçdi. Arxada onun narahat anası Olimpiya qalmışdı.

Persiya imperiyasının işğalı (334–330-cu illər)

Bəzi tarixçilər Aleksandrın Avropadan Asiyaya keçməsi barədə müxtəlif fikirlər söyləyir, hətta təhriflərə də yol verirlər. O, sadəcə Persiya müharibələrini təkrar etmək istəyirdimi, İoniya yunan şəhərlərini Persiya boyunduruğundan azad etmək məqsədini güdürdümü, yaxud Ellinizmin faydasını Şərqə göstərmək istəyirdimi? Onun ideyaları isə bütün bunlardan böyük idi. O, özündən razı olan bu diplomatiyanın müdaxiləsinə son qoymaq üçün Persiyanı darmadağın etməli idi. Dünyanın hədlərində Makedoniyanın oyun oynaması üçün vaxt artıq gəlib çatmışdı. O, öz sinəsində Homerin qəhrəmanlarına xas olan kimi ürəyinin döyündüyünü hiss edirdi. O, «İliada»nı həyata, reallığa gətirmək istəyirdi. Axı Mikena çarı Aqamemnon da yunan ittifaqını düzəldib, Asiyaya keçmiş, Kiçik Asiyadakı qüdrətli şəhər-dövlət olan Troyanı – İlionu qəsb etmiş və viran qoymuşdu.

Nəhayət, Aleksandr Hellospontu keçdi, Axillesin sərdabəsi üzərində qurban mərasimi keçirdi. Onu özünün əcdadı hesab edirdi və sonra persiyalılar üzərinə sürətli bir hücum etdi. 334-cü ildə Qranik çayının sahillərində, heç bir döyüş planı olmadan Persiya çarının köməkçiləri üzərində parlaq qələbə çaldı. Barbar torpaqlarında əldə etdiyi qənimətləri Afinaya göndərdi ki, Parfenonda cəmlənsin və Akropolu daha da bəzəsin. Troya regionunda yunanları çar boyunduruğundan azad etdi və çarın satraplarının onların üzərinə qoyduqları bütün vergiləri ləğv etdi. Bir neçə ay ərzində Homerin bardlarında vəsf olunan böyük şairin ana yurdunu işğal etdi. Lidiya paytaxtı Sardıda sakinlər üçün olan qədim (Böyük Kirə qədərki) qanunları bərpa etdi. Efesdə rəqib fraksiyaları sakitləşdirdi və oradakı Yeddi Möcüzədən biri olan Artemida məbədini yenidən tikmək üçün (məbədi 356-cı ildə, Aleksandrın anadan olduğu həmin gecədə Herostrat yandırmışdı) lazım olan vəsaiti verdi. Şimali Frigiyaya qayıdıb, paytaxt Qordi şəhərinə çatdı, bu şəhər Suzaya gedən yolun üstünə idi, məşhur Qordi düyününü (ilgəyini) qılıncla kəsdi. Əfsanəyə görə, bu, ona Asiya üzərində hökmran olmağı, imperiya yaratmağı vəd edirdi.

Sonra Aleksandr cənuba tərəf hərəkət edib Persiyanın Aralıq dənizi ilə əlaqələrini kəsdi. O, Hellospontdan Nil çayına qədər olan ərazinin hamısını tutmaq istəyirdi, həmin torpaqlarda o, işğalçı qəsbkar kimi deyil, xilaskar olacaqdı. Çünki o, mərhəmətli hərəkət etməyə üstünlük verirdi. Yalnız mərhəmət fayda verməyəndə, gücə əl atmalı olurdu.

333-cü ildə o, Suriya ərazisinə girdi və noyabr ayındakı İssa döyüşündə çar Daranı məğlub etdi. III Dara qaçmaqla canını qurtardı və Babilə çatdı, lakin o, öz hərəmxanasını və ailəsini tərk etməli olmuşdu. Aleksandr əsirlərinə hörmətlə yanaşdı, çariça dustaq kimi düşərgədə öləndə o, yüksək matəm keçirilməsi barədə göstəriş verdi. Elə təsəvvür yaranırdı ki, Dara tam məğlub olmuş kimi, öz taxt-tacını Makedoniyaya vərəsə kimi vermişdir.

Aleksandr öz yolu ilə gedirdi. Babili götürmək əvəzinə o, imperiyanı iki hissəyə – şimala və cənuba – böldü, onun dəniz qüvvələrinin məhv etmək əmrini verdi. Sidon ona öz qapılarını açdı, Tir isə bir neçə aydan sonra təslim oldu. Aleksandr onu öldürmək məqsədini güdən qatilin bıçaq zərbəsindən qurtara bildi və Qəzzəni tutdu. 332–331-ci illərin qışında Misir heç bir zərbəyə məruz qalmadan

onun əlinə keçdi və misirlilər fatehi xilaskar kimi qarşıladı. O, Memfisdə qurban verilməsini təklif etdi, Aleksandriya şəhərinin əsasını qoydu. Bu şəhər Ellinizm mədəniyyətinin beşiyinə çevrildi. Şimali Afrikadan keçib, Karfagenə doğru irəlilədi.

Aleksandr sonra geri dönüb Persiyanın mərkəzinə doğru getdi. 387-ci ilin oktyabrında Qavqamelada Daranı üçüncü və həlledici döyüşdə darmadağın etdi. Bu vaxt artıq o, əsl Asiya cəbhəsində idi, Babilə gözəl bir qaydada daxil oldu. Bütöv ay ərzində keçirilən bayramlar əsgərlərə dincəlməyə və şadlanmağa imkan verdi. Əhəməni imperiyası öz sonluğuna çatdı. Aleksandrın yeni imperiyası isə Qərblə Şərqi birləşdirməyə can atırdı. Ekbatanda sığınacaq tapan Daranın arxasınca düşmək əvəzinə o, Suzaya tərəf irəlilədi, bu şəhər də ona öz qapılarını açdı.

Yunanlarla barbarlar arasında uzun müddət davam edən düşmənçiliyə son qoymağın rəmzi kimi Aleksandr persiyalıların paltarını geyinirdi. O, oyunlar keçirir, qurbanlar verirdi və əsir printessaları azad etdi, onlar Daranın anası və qızları di. Yaşayış yeri kimi Suzanı seçdi və sakinlərə yunan dilini öyrətdirdi.

İranın içərilərinə irəliləyib, o, müqəddəs şəhərlər olan Persepolisə və Pasarqadaya daxil oldu. Müqavimət göstərən çar satrapını cəzalandırdı və Persenopolisi qarətə məruz qoydu. Əsgərlərinə görünməmiş soyğunçuluqla məşğul olmağa icazə verdi. Böyük məbləğdə pulu olan xəzinəni ələ keçirdi. Pasarqadada isə Böyük Kirin sərdabəsinə təzim etməyə yollandı, o, Böyük Çar yerini tutmaq üçün Şərq adətlərini öyrənməli idi, öz ordusunun bir hissəsinin isə onun bu hərəkətindən heç də xoşu gəlmirdi.

330-cu ilin yayında o, Persepolisdə nəhəng ziyafət təşkil etdi, məclis musiqi ilə, mahnılarla və rəqslərlə müşayiət olunurdu. Bu vaxt sərkərdə Ptolomeyin kurtizankası Taisin təklifi ilə Persiya çarlarının sarayı oda verilib yandırıldı. Bu, vaxtilə persiyalıların Afinanın oda vermələrinin intiqamı xarakterini daşıyırdı.

Dara taqətdən düşdüyündən özünü Baktriradakı satrap Bessə təslim etdi. Bess özü də taxt-taca sahib olmağa can atırdı. O, bir xainin köməyi ilə Daranı öldürtdürdü. Aleksandr bu vaxt onu xilas etməyə tələsirdi. O, düşmənininin meyiti üzərində ağladı, ona son ehtiramını göstərdi və səkkiz ay sonra Bessi əsir götürdü. Bu, Əhəmənilərin sonu demək idi. Persiyada bu vaxt yalnız təkcə bir çar qalmışdı, o da Aleksandrın özü idi.

330–323-cü illərdə Baktriyanın və İnd vadisinin işğalı

Dara artıq ölmüşdü, öz qələbələrinin nəticəsi ilə bu vaxt artıq Aleksandrın çar olmaq hüququ var idi. O, heç də təkcə yunanların baş komandanı deyildi, həm də Böyük Kirin varisi kimi şahənşah idi. O, Persiyanın saray qaydalarına özünü uyğunlaşdırdı, özü üçün hərəmxana düzəltdi və başına tiara (tac) qoydu

Aleksandr daha uzaqlara yollandı ki, özünü allah elan etsin və yunanlardan tələb etdi ki, onu görəndə şərqlilər kimi təzim etsinlər. Bu vaxt ona qəsd təşkil

olundu, qəsdin üstü açıldı, şübhəli bilinənlərin hamısı edam edildi. Onların arasında hətta onun köhnə dostları da var idi.

327-ci ilin yanvarında qələbə bayramı keçirilərkən məğlub etdiyi düşmənin qızı Roksana onun xoşuna gəldiyindən, ona evləndi. Güman edirdi ki, bu, Yunanıstanla Asiyanın birliyinin simvolu olmaqdan daha böyükdür.

İşğal yolunda isə heç bir dayanmaq anı yox idi. Sirrli Hindistan onu özünə cəlb edirdi, axı o, öz əcdad allahları olan Dionisin və Heraklın ənənələrini davam etdirmək istəyirdi.

Yunanlar Şərqə yürüş yolu açdılar. 120 min nəfərlik piyada və 15 min nəfərlik süvari dəstəsinin başında Aleksandr böyük bir macəra yaşadı, Hindistanın ərazisi ilə 18 ay ərzində irəlilədi. Lahor racası Porun fillərinə qarşı öz taktikasını uyğunlaşdırdı, İnd çayının sahillərində Porun müqavimətini qıra bildi.

Qanq çayı üzərindəki sol sahil ona dünyanın həlli kimi görünürdü. Lakin onun əsgərləri tropik (musson) yağışından cana doymuşdu. Onun zabitləri vətən üçün darıxırdılar və ordu artıq uzağa getmək istəmirdi. Fateh üçün bu, olduqca ağır bir məsələ idi, axı o, tək özü gedə bilməzdi və digərlərinin sevincinə səbəb olan bir qaydada geri dönmək əmrini verdi.

326-cı ilin payızında o, donanma düzəltdirdi, bu vaxt onun 2 min gəmisi var idi. O, aldığı yaradan əziyyət çəkən bir vəziyyətdə İnd çayına çatdı, güman edirdi ki, bu çay Nilə tökülür. Çayla okeana tərəf üzdülər. Ordunun bir hissəsi Nearxın başçılığı altında donanmada üzməli idi. Aleksandr özünə quru marşrutu seçdi, bu yol məhvedici Gedrosiya səhrasından keçirdi. Bu yolla getməklə o, donanma ilə əlaqə yaradacağını düşünürdü.

Ekspedisiyadan salamat qalanlar, nəhayət, Suzada görüşdülər. Aleksandr onları mükafatlandırmağı qərara adı, həmin vaxtdan onun siyasəti irqləri birləşdirməyə yönəlmişdi. 324-cü ildə o, təəccüb doğuran bir kütləvi nikah mərasimi keçirdi. On min qarışıq nikah həmin vaxt yunan əsgərləri və asiyalı qadınlar arasında baş verdi. Çarın bütün köməkçiləri seçmə Şərq gəlinlərini qəbul etdilər. Onun özü bu vaxt Hindistanda Roksanadan olan oğlunu itirmişdi, Daranın böyük qızı, printsessa Barsina (Stateyra) ilə rəsmi nikahını bayram etdi.

Aleksandr yerli qoşunları, qürbətdə olmaqdan cana doymuş əsgərlərinin yerinə qoydu, onlara yunan dilini və Makedoniya taktikalarını öyrətdirdi. Həm də bu, yeni əsgərləri özünün köhnə qoşunlarından qalanlarla birləşdirdi. Ancaq o özü də Yunanıstanı unutmurdu və yüksək birlik yaratmağı arzu edirdi. O, Suzada iki dekret imzaladı. Birincisi, Afinadan başqa bütün yunan dövlətləri ümumi amnistiyaya salındı, çünki Afinada anti-Makedoniya ruhu hələ də yaşayırdı. İkincinin əsasında isə o, özünə ilahi şərəf göstərilməsini tələb edirdi. İstəyirdi ki, onu Zevsin oğlu, Apollonun qardaşı, yeni Dionis kimi tanısınlar. 323-cü ildə Babildə o həm çar, həm də allah idi. Onun apofeozunu bayram etmək üçün bütün dünyadakı yunan şəhərləri öz nümayəndələrini göndərmişdi.

Aleksandrın ambisiyası olduqca acgöz idi. O, yeni yürüş hazırlayırdı və təzə işğal edəcəyi regionları öyrənirdi. Asiyadan sonra Afrika gəlməli idi. Lakin Nemezida – intiqam ilahəsi onu gözləyrdi, onunla haqq-hesab çəkmək istəyirdi. Onun bədəni orgiyalardan, yaralardan və müharibə sınaqlarından çox əzab

çəkmişdi. Onu isitmə tutdu, xəstəlik günbəgün şiddətləndi, qısa müddət ərzində onun yaşamaqdan məhrum olmasının rəmzi olan kəfəni toxundu və 323-cü ilin 13 iyulunda öləri olmayan allahı ölüm zərbəsi haqladı. Böyük hərb dühası həyatı tərk etdi, ölməzlik isə onun özünə deyil, yalnız şöhrət simvolu olan adına nəsib oldu.

O, öz hakimiyyəti altında məlum dünyanın birləşməsini görmək üçün yaşaya bilmədi və o, həm də dünyaya yeganə bir paytaxt vermədi. Yunanıstan daxili münaqişələri ilə yunanların ölkəsi olaraq qalırdı. Onu Aleksandrın Avropadakı müvəkkili və Makedoniya qubernatoru Antipatr idarə edirdi. Fateh hamını işlək və sağlam xalq kimi saxlamaq qabiliyyətinə malik idi. Asiyanın üzərinə yeniliklər qoyulsa da, onun əhalisi asiyalı olaraq qalırdı. O, Əhəməni inzibatçılığını qaydaya salmış və təmizləmişdi. O, satrapiyaları yenidən təşkil etdi, onların mövcudluğunu Suriyada, Hindistanda və Misirdə saxladı. O, vergilərin ödənilməsində qayda yaratdı. Satraplara hərbi komandan kimi generallardan ibarət müavin verdi. Yeni sikkə buraxdırdı, üstündə onun öz portreti var idi. Kanallar çəkilir, yolar açılırdı. Şəhər həyatı və kənd təsərrüfatı oxşar bir qaydada inkişaf edirdi.

Ağa, çar və allah Babili öz paytaxtı kimi seçməli idi. Lakin o, Aristotelin şagirdi olaraq qalırdı. O inanırdı ki, bu, Qərbin Şərqi maarifləndirmək tapşırığıdır. Rəssamları, alimləri, şairləri və Afinada məktəb keçmiş yazıçıları himayə edirdi. Yunan dilinin və sivilizasiyasının həyati gücünü təcrübədən keçirərək dünya ətrafında sayı 34 olan Aleksandriyaların əsasını qoydu. Onlar gələcək Ellinizmin Afrika və Asiya torpağındakı mərkəzləri olacaqdı. Misirdəki Aleksandriyadan və digər həmin addakı şəhərlərdən hamı Homerdən bəri bütün dünyanın malik olduğu yunan sivilizasiyasına xas olan hər şeyi öyrənmişdi.

Bu, onun gənc dühasının ali planı idi və onun ölümündən sonra uğur qazandı. O, əmin olmaq istəyirdi ki, Ellinizm bütün nəsillərdən ötəri yaşayacaqdır. O, hətta utopiyadan da çox uzaqlara gedirdi, fövqəltəbii Ellinizmə İsokrat da dua edirdi və Filipp, demək olar ki, bu ideyanı mənimsəmişdi. Əgər Aleksandr ilahi hüquqla dünya üzərində öz monarxiyasını qursaydı, bu heç də qardaşın qardaş yanında yaşaması olmayacaqdı. Onlar qarşılıqlı nifrətlə bir-birindən ayrılmış düşmənlər və ya irqlər olaraq qalardı. Deyəsən, ingilis yazıçısı Redyard Kiplinq haqlı imiş ki. Yerlə Göyun birləşməsinə inana bilər, ancaq Qərblə Şərqin birləşməsinə inanmır. Bu sadəcə birləşmə idi, onu mexaniki birləşmə də adlandırmaq olardı və ən yaxşı yunan fikrini Şərqin münbit torpağına tökürdü.

O, Roksanaya evləndi, öz köməkçilərinə arvad almaq üçün Şərq printsessalarını verdi, öz əsgərlərinə isə Persiya qadınlarını verdi. İki sivilizasiya arasındakı bu nikahlar hər iki tərəf üçün ən yaxşı elementlər bəhrəsi verəcəkdi.

33 yaşında 12 illik qalibiyyətdən sonra ölməklə Aleksandr yeni növ tarix yaratdı, paradoksal olsa da, fateh bu ərazilərə sülh gətirdi, xalqları məcbur etdi ki, onun idarəçiliyini qəbul etsin. Özü isə onlara yalnız yaşamaqda və özlərini birləşdirməkdə kömək etsin.

İdeyalar dünyanı idarə edir. Aleksandr öz ideyalarını işğal etdiyi dünyaya ötürdü. Onun hökmranlığı ilə fraksiyaların idarəçiliyinə son qoyuldu, liqalar parçalandı, xalqlar onları qarışdırıb əridən bir qazana atıldı və irqlər bir-birinə qarışdı, böyük adamların özünün dövrü başa çatdı.

O, yunan dünyasının sistemləşdirilməsini başa çatdırdı, Aristotelin Makedoniyalı şagirdi, yunan irsini xilas etdi, Aleksandr erası başlandı və Ellinizmin bütün dünyaya nüfuz etməsinə şərait yaratdı.

B.e.ə. 323-276-cı illərdə Ellinistik çarlıqların qurulması baş verdi. Aleksandrın karyerası yeni yunan dünyasının qalxmasını mümkün etdi, bu vaxt şəhər-dövlətlər ərazi monarxiyalarına tabe olmaq rolunu oynamağa başladılar. Yunan xalqı mədəniyyətin və siyasi təcrübənin hər bir meydanında təzə nəfəs tapdı. Aleksandrdan Avqustun başçılığı altında Roma imperiyasının qurulmasına qədər olan üç əsr bütöv yunan tarixindəki ən məhsuldar və nüfuzlu dövr idi.

Aleksandrın ölümündən sonra Ptolomey Misiri aldı. Antipatr Makedoniya və Yunanıstan daxil olmaqla Avropa ərazilərinə nəzarət edirdi. Asiyada Perdikka oliqarx və ya baş vəzir oldu. Frigiya satrapı olan Antqion Qərbi Anatoliyanı aldı, Lisimaxa isə Frakiya düşdü. Bütün bu adamlar – Ptolomey, Antiqon, Aleksandrın şəxsi katibi olan Evmen və Lisimax daha görkəmli adamlar olmaqla, hakimiyyət uğrunda mübarizələrdə başlıca rol oynadılar. Antiqon Aleksandr imperiyası birliyində onun varisi kimi ağalıq etməyə cəhd göstərdi. 319-cu ildə Antipatr öldü, oğlu Kassandr onun yerini tutdu. Antiqon beş il ərzində Kiçik Asiyadan İrana qədər olan bütöv ərazidə nəzarəti ələ keçirdi. O, Kassandrı Aleksandrın anası Olimpiyanın «qatili» kimi və onun arealını tutduğuna görə məhkum etdi və IV Aleksandrın kiçik yaşda olması dövrü ərzində (Böyük Aleksandr rəsmi qaydada III Aleksandr idi) Kassandr Avropanın hökmdarı olaraq qalırdı. Antiqon isə Asiyada hökmran idi. Lisimaxın Frakiyaya, Ptolomeyin isə Misirə nəzarəti möhkəmlənmişdi. Kassandr 310-cu ilə yaxın Böyük Aleksandrın oğlu IV Aleksandrın və onun anası Roksananın öldürülməsi barədə əmr verdi.

Antiqon həm özü, həm də oğlu üçün çar titulu aldı. Ptolomey də «Misirin çarı» tituluna yiyələndi. Kassandr, Lisimax və Selevk də bu qaydada hərəkət etdəlir. Selevkin əsas ərazisi Suriya idi.

Aleksandr nəslindən axırıncı olan Selevk Lisimaxın Asiyadakı torpaqlarını tutdu, Avropaya keçdikdə Ptolomey tərəfindən qətlə yetirildi. Onun oğlu I Antiox artıq birgə monarx kimi dövləti idarə edirdi. Lisimaxın və Selevkin ölümləri həm də Antiqon Qonat üçün böyük imkanlar yaratdı.

Aleksandriyada yunan azlığı Ptolomey idarəçiliyinin əsasını yaratdı. Şəhərdə yunnlarla yanaşı, yəhudilər və misirlilər yaşayırdı. O hətta yunan şəhəri olmasa da, burada Ellinizm geniş dərəcədə münbit mövqeyə malik idi. Lakin sonralar Misir ənənələri üstünlük təşkil etməyə başladı. Yunanlar imtiyazlı sinif olaraq qaldıqlarına görə «ellin» sözü mədəni terminə çevrildi.

Selevkid torpaqları üç ayrıca zonanı – Kiçik Asiyanı (Anatoliyanı), Mesopotamiyanı və İranı əhatə edirdi.

Ellinləşmə: Yunan şəhərləri

III Antiox Asiyanın yunan şəhərləri üzərində özünün tam suverenliyinə iddia edirdi. Selevkidlər iki vəzifəyə malik idilər – yunan sakinlərini, torpaqların əvvəlki ağası olan iranlılarla barışdırmaq və Xarəzmin hakimiyyətinə qarşı Şərq sərhədlərini müdafiə etmək.

Baktriya satrapı Diodor Selevkin zəiflədiyindən faydalanıb, ölkədə Yunan–Makedoniya çarlığı yaratdı.

Makedoniyanın özü qeyri-münbit torpağa malik idi. Paytaxt Pella ellinist şəhərə çevrilmişdi.

Qitədə və dənizdəki adalarda Ellinist erası yunanların təsiri altında bir sıra dəyişiklikləri gördü. Yunanların azad olması dəfələrlə baş verirdi, bəzi qullar öz azadlıqlarını satın alırdılar. Aleksandrın ölümündən 60 il sonra Afina müstəqil siyasət aparmağa can atırdı. B.e.ə. II əsrdə bütün ərazilər Romaya keçdi. Makedoniya ayrıca təzminat verən dörd respublikaya bölündü. Yunanıstan Roma işğallarından sonra çətinliklər içərisində idi. B.e.ə. 146-cı ildə Roma sərkərdəsi Lutsi Mummi Korinfi qarət etdi.

Pont çarı VI Mitridat Yevpator (b.e.ə. 63-cü ildə ölmüşdür) Bosporu aldıqdan sonra öz ərazilərini xeyli genişləndirdi. Roma Ponta müdaxilə etdikdə, Mitridat 88-ci ildə müharibə etməyi qərara aldı. Asiya Romaya qarşı nifrət mövqeyində idi. Roma onlara ağır vergilər qoymuşdu, Mitridata isə xoş münasibət var idi. Mitridat Efesdə 80 min nəfər italyanın qırğınını təşkil etdi. Onun donanması Afinaya keçəndə, Afina da ona qoşuldu. Sullanın ölümündən sonra romalılar onunla danışıqları kəsdilər. Roma sərkərdəsi Lutsi Lukull onu məğlub etdi, Pontu tutdu və Asiyada yenidənqurma apardı. Pompey Pontu yenidən tutduqdan sonra Mitridat Kolxidaya qaçdı, sonra isə 63-cü ildə Krımda özünü intihar etdi.

VIII Ptolomey öldükdən sonra Misirdə çarlıq üç oğul arasında bölündü. XIII Ptolmeyin atası öləndə, onun 10 yaşı var idi, bacısı Kleopatra isə 17 yaşında idi və onlar ər-arvad idilər. Faraonların öz bacıları ilə evlənməsi ənənəsi Ptolomeylər tərəfindən də davam etdirilirdi. Nazirlər bacının əleyhinə qardaşı taxta oturtdular. Bu vaxt Pompey Farsaldakı döyüşdə məğlub olandan sonra qaçqın kimi Misirə gəlmişdi və orada qətlə yetirildi. Sezar oraya gələndə Kleopatra Aleksandriyaya döndü və onun köməyini aldı. Vətəndaş müharibəsini Sezar çətinliklə yatırdı və XIII Ptolomey 47-ci ildə öldürüldü. Kleopatra taxt-taca çıxdı, özünün ikinci qardaşı XIV Ptolomeyə ərə gedən Kleopatra Sezarın məşuqəsi kimi onunla birlikdə Romaya getdi, Sezarın 44-cü ildəki ölümünə qədər orada qaldı. Onun Sezardan Sezarion adlı oğlu var idi.

Kleopatranın portreti

Kleopatra Misirdə yerli elementə arxalanırdı. 41-ci ildə Şərqə hökmranlıq edən Mark Antoni onu Tarsusa çağırdı və onların sevgi macərası başlandı. Bir il sonra Antoni Avqustun bacısı Oktaviyaya evləndi. Lakin onun Klepoatra ilə sevgisi bərpa olundu. 34-cü ildə Kleopatra çarlar çariçası təyin edildi, onun Sezardan olan oğlu Sezarion isə şahənşah elan edildi. O, Antonidən də üç uşaq doğmuşdu, onlar da satellit çarlıqların çarları təyin edilmişdilər. Lakin 31-ci ildə Oktavian Antoninin və Misir donanmalarını Aktsiumda məğlub etdi. 30-cu ildə Oktavian Misirdə olanda Kleopatranın özünü intihar etməsilə Ptolomey monarxiyası dağıldı və Misir həmin vaxtdan Romanın əyalətinə çevrildi. Ellinist dünyası artıq bütünlüklə Roma imperiyasının bir hissəsi kimi mövcud oldu.

324-cü ildə Aleksandr yunan şəhərlərində özünə sitayiş tələb etmişdi. II Ptolomey öz mərhum atasını «Xilaskar allah» adlandırırdı, arvadının ölümündən sonra onun da kultunu yaratdı. Başqa çarlıqlar da tezliklə onların nümunəsini təkrar etdilər. Allah – çarlar and obyekti idi, ancaq onlara dua edilirdi.

Çarlar öz dostlarından ibarət məsləhətçi vəzifəsini daşıyan Şuralara malik olurdu. «Qohum» ifadəsi Əhəməni mənşəli idi.

Yunan şəhərləri Ellinist monarxiyalarında fundamental rol oynayrdılar. Aleksandrın kampaniyaları yunan sivilizasiyaları dövrünə yol açdı. Yunan dili ordunun və bürokratiyanın dili oldu.

Lakin yunanlarda varlı və kasıb adamların arasındakı uçurum böyüyürdü və bu da gərginlik yaradırdı.

Ellinist dünyası mədəni dünya idi. Bu dünya səyahət üçün də yaxşı imkanlar yaradırdı. Fəlsəfəyə əhalinin müraciət etməsi müxtəlif səviyyələrdə idi. Afina böyük mərkəz olaraq qalırdı. Aleksandrın yürüşləri yunan dünyasının üfüqlərini genişləndirdi və onun varisləri tədqiqatlarını daha uzağa apardılar. II Ptolomey fil sümüyünü və filləri axtaranda Qırmızı dənizi kəşf etdi. Baktriya çarları Fərqanəni məskunlaşdırdılar. Selevkid isə Xəzər regionunda fəal idi.

Ellinist dünyasının özündə ticarət fəallığı gözə çarpırdı. Şərqdən gələn mallar daha yüksək qiymətlənirdi. Lakin b.e.ə. 146-cı ildən sonra Yunanıstanın süqutu davam etdi. Bizim eranın 67-ci ilində Neron Yunanıstanı azad etmək məsələsində canfəşanlıq göstərdi və onun bütün təzminatları ödəmələrini

dayandırdı. Peloponnes Neronez adlandırıldı. Neron özü xilaskar Zevsə sitayş edirdi. Lakin onun varisi olan Flavi imperatorları tezliklə buna son qoydular və əyalətin vergi verməsini bərpa etdilər. 251-ci ildə Roma imperatoru Detsinin ölməsi ilə qapılar barbar müdaxilələri üçün açıldı. Bütöv yarımada uzun müddət kiçik kəndlərin və iri malikanələrin məkanı oldu.

Yunanıstan və Ellinizm barədə qısa düşüncələr heç də min illər ərzindəki uzun dövrü bütünlüklə əhatə etməsə də, əsas mərhələlər barədə müəyyən təsəvvür yaratmağa kömək edə bilər. Biz qədim yunanların bəşəriyyət qarşısındakı xidmətlərini qiymətləndirməklə, onlar həqiqətən də, tərifə layiqdirlər, onların həyata gətirdiyi sivilizasiyanın töhfələrinə biganə qalmamağımızı, beşiyi başında duranlara minnətdarlıq hisslərimizi ifadə etməklə, yeniləşmiş dünya ilə uzaq keçmiş zamanların əlaqəsini, azacıq da olsa, bərpa etməyə cəhd göstərdik və ifadə etdiyimiz ehtiram əgər ünvanına çatırsa, bundan yalnız məmnunluq hissi duymaq olar. Ədalətə xidmət isə heç vaxt öz qiymətini itirmir.

SON